RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 206 (9951) 26 sentyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İlham Əliyevdən dünyaya ədalət dərsi



## "Gəlin, ikili standartların aradan qalxdığı bir dünya quraq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.**

**AZƏRTAC dövlətimizin başçısının çıxışını təqdim edir.**

## Prezident İlham Əliyevin çıxışı

- Xanımlar və cənablar.

Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam.

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qaldı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salındı. Onların fundamental insan hüquqları kobud şəkildə pozuldu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi. Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən heç bir sanksiyaya məruz qalmadığı üçün qətnamələrə nümayişkaranə şəkildə məhəl qoymadı.

1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar.

Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi.

2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü.

Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi. Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar.

2

## Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb

**Sentyabrın 25-də BMT-nin mənzil-qərargahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı BMT-nin fəxri qonaqlar kitabını imzaladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş birgə foto çəkdirdilər.

Baş katib Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.



BMT-nin Qaçqınlar üzrə Ali Komissarı vəzifəsində Azərbaycana səfərini xatırlayan Antonio Quterreş həmin vaxt ölkəmizdə qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti ilə yerində tanış olduğunu dedi. O, bütün bu məsələlərin artıq keçmişdə qaldığını sevinc hissi ilə vurğulayaraq, Azərbaycan hökuməti tərəfindən məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmaları ilə əlaqədar böyükmiqyaslı layihələr həyata keçirdiyini qeyd etdi.

BMT-nin Baş katibi COP29-un Azərbaycanda uğurla keçirilməsi və beynəlxalq iqlim gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlər münasibətilə də dövlətimizin başçısını təbrik etdi və bu tədbirin yüksək səviyyədə keçirilməsi ilə bağlı təşəkkürünü çatdırdı.

2

## İlham Əliyev İrakli Kobaxidzeni təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə zəng edib.

Dövlətimizin başçısı Baş nazir İrakli Kobaxidzeni ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulayıb.

İrakli Kobaxidze göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti əsnasında Azərbaycan Prezidenti və Gürcüstanın Baş naziri ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakter daşıdığını qeyd edib, əməkdaşlığın müxtəlif sahələrdə inkişafına dair fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat xidməti*



# İlham Əliyevdən dünyaya ədalət dərsi

## "Gəlin, ikili standartların aradan qalxdığı bir dünya quraq"

### Prezident İlham Əliyevin çıxışı





*Əvvəli 1-ci səh.*

Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atdı. Bundan əlavə, Azərbaycan və Ermənistan artıq sülh prosesinə aidiyyəti olmayan köhnəlmiş mexanizm kimi ATƏT-in Minsk qrupunun və əlaqədar strukturlarının bağlanması üçün birgə müraciət ünvanladılar. Beləliklə, sentyabrın 1-də ATƏT bu strukturların birdəfəlik bağlanması barədə qərar qəbul etdi.

Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP).

Vaşinqton Sammit həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır.

Eyni zamanda Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

Ümumilikdə avqust ayında ABŞ-yə səfərim zamanı əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət daşıyır.

Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm.

Azərbaycan 2020-ci ildə Vətən müharibəsində Qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma proqramına start verdi. Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi. Biz isə yerlə yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. "Böyük qayıdış" proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır.

Postmünaqişə dövründə Azərbaycanın qarşısında duran ən ağır humanitar problemlərdən biri də Ermənistan işğalı dövründə yerləşdirilmiş minaların yaratdığı təhlükədir. 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçi mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb. Bu geniş mina təhdidi köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törədir.

Eynilə 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyi xüsusi diqqət və tədbir görülməsini tələb edir.

Xanımlar və cənablar, qlobal çağırışlara gəldikdə, biz inanırıq ki, cavab tədbirləri inklüziv, ədalətli və ümumbəşəri olmalıdır.

Azərbaycan bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə aydın sadiqliyini göstərdi.

Ötən il iqlim fəaliyyəti, "yaşıl keçid" və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a evsahibliyi etməkdən qürur duyduq. COP29-un ev sahibi kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik.

COP29-da qəbul edilmiş, Bakı Maliyyə Hədəfi kimi də tanınan Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qlobal iqlim maliyyəsində tarixi mərhələdir. Bu öhdəlik 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin dövlət mənbələrindən inkişaf etməkdə olan ölkələrə illik 100 milyard ABŞ dolları məbləğində ilkin iqlim maliyyələşdirmə hədəfini hər il ən azı 300 milyard ABŞ dollarına çatdırmağı nəzərdə tutur. Azərbaycan həmçinin Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, karbon bazarları üçün uzun müddətdir gözlənilən çərçivəni uğurla yekunlaşdıraraq, Paris Sazişinin qəbulundan doqquz il sonra onun tam fəaliyyətə başlamasını təmin etdi. İqlim dəyişikliyinə məruz qalan həssas icmalara vacib dəstək verən İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyət göstərməsi üçün COP29-da bir neçə əsas saziş imzalandı.

"Yaşıl keçid"ə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq. Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz.

Enerji təhlükəsizliyi sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəlidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam edir. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq.

Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb.

Azərbaycan həmçinin Günəş, külək və su-elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

"Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizləri kimi bağlantı layihələri ölkəmizdən keçir. 2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımalarda təqribən 90 faiz artımın şahidi olmuşuq. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib.

Rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensial mövcuddur. Azərbaycan "Rəqəmsal İpək yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünü irəliləd. Bu layihəyə Azərbaycanın əsas regional rəqəmsal mərkəzə çevrilməsinə şərait yaradacaq Xəzər dənizinin dibi ilə qabaqcıl fiber-optik kabel şəbəkəsinin qurulması planları da daxildir.

Azərbaycan neft və qaz sektorundan əlavə, iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, islahatlar və şəffaflıq vasitəsilə investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə mühüm iqtisadi artıma nail olub. Yoxsulluğun və işsizliyin tarixi minimum həddə - 5 faizə endirilməsi ölkəmizin daha bir nailiyyətidir.

Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı. Çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə, Azərbaycana sərfəli investisiya dərəcəsi verildi. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşündə Xəzər dənizində ətraf mühitin pozulması məsələsini qaldırdım. Bu gün vəziyyət daha acınacaqlıdır. Xəzər dənizi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan həmçinin həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır.

Xanımlar və cənablar, Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur. Biz təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstəririk. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib.

Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

Təşəkkür edirəm.



# Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb

*Əvvəli 1-ci səh.*

Antonio Quterreş BMT ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, hazırda ölkəmizin bu təşkilatın digər regionlarda fəaliyyətini dəstəklədiyinə görə minnətdarlığını bildirdi, beynəlxalq böhranların aradan qaldırılmasında Azərbaycanla BMT arasında əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu qeyd etdi.

Azərbaycanın çoxtərəfli diplomatiyada fəal roluna toxunan BMT-nin Baş katibi Qoşulmama Hərəkatında ölkəmizin uğurlu sədrliyini də vurğuladı, Azərbaycanın artıq donor ölkə olaraq BMT-nin müxtəlif institutlarının fəaliyyətinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.

BMT-nin Baş katibi ölkəmizin regional əməkdaşlıq layihələrinin inkişafındakı, həmçinin Mərkəzi Asiya ilə regional nəqliyyat bağlantılarının yaradılmasındakı rolunu qeyd etdi.



Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət daşıdığını vurğuladı. İki ölkə arasındakı münasibətlərin və regiondakı vəziyyətin tamamilə dəyişdiyini deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və Ermənistan müstəqilliklərini əldə edəndən bəri regionda sülh olmayıb. Hazırda isə bölgədə sülh mövcuddur. Hər iki ölkənin sülh şəraitində yaşamağa öyrəşdiklərini vurğulayan Prezident İlham Əliyev bunun həm Azərbaycan, həm də Ermənistan üçün mühüm və tarixi önəm kəsb etdiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində işğaldan azad olunmuş ərazilərimizdə görülən genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd etdi. Bu xüsusda Prezident İlham Əliyev 53 mindən artıq keçmiş məcburi köçkünün öz doğma torpaqlarına qayıtdığını, Azərbaycanın "Böyük qayıdış" proqramına uyğun olaraq genişmiqyaslı bərpa və quruculuq işlərini həyata keçirdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın donor kimi COVID-19 zamanı 80-dən çox ölkəyə yardım göstərdiyini qeyd etdi və bundan sonra da regional, həmçinin beynəlxalq sülh gündəliyini dəstəkləyərək bu işə öz töhfəsini verəcəyini dedi.

2026-cı ildə ölkəmizdə BMT-nin Ümumdünya Şəhərsalma Forumu kimi böyük tədbirinin keçiriləcəyinə toxunan Prezident İlham Əliyev vurğuladı ki, bu tədbir Azərbaycanın şəhərsalma, xüsusən də postmünaqişə şəraitində şəhərsalma sahəsində əldə etdiyi zəngin təcrübəsinin beynəlxalq ictimaiyyətlə bölüşməsi üçün yaxşı fürsət yaradır.

# Azərbaycan ilə Türkmənistanı ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri birləşdirir

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Türkmənistanı ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, ikitərəfli münasibətlərimiz ortaq soy-kök və milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2025-ci il*

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Məmmədzadə Kənan Kamil oğlu - polkovnik-leytenant
Sanıyev Xalid Bəhmən oğlu - polkovnik-leytenant
Şahmaliyev Vaqif Şaiq oğlu - polkovnik-leytenant
Ağayev Vüsal Mirzağa oğlu - kapitan
Mövlamov Füzuli Saleh oğlu - kapitan
Musayev Mirvahid Mirələm oğlu - kapitan
Şaliyev Şahin Eldar oğlu - kapitan
Əliyeva Məsumə Teymur qızı - baş leytenant.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 sentyabr 2025-ci il*

# Azərbaycan Respublikasının baş prokuroru Özbəkistanda səfərdədir




Əvvəlcə Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Görüşdə ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın baş prokuroru Niqmatilla Yuldaşev dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, o cümlədən prokurorluq orqanları arasında olan yüksəksəviyyəli əməkdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib. O, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını bildirərək, təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Özbəkistan - Azərbaycan münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də inkişaf etdirildiyini, hər iki dövlət başçısının siyasi iradələrinin təzahürü kimi 23 avqust 2024-cü ildə Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"dən sonra reallaşan strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini qeyd edib.

Baş prokuror həmçinin 44 günlük Vətən müharibəsində əldə olunan tarixi zəfərdən sonra Özbəkistan dövləti tərəfindən Qarabağda aparılan geniş quruculuq bərpa işlərinə göstərilmiş dəstəyi xüsusi vurğulayaraq, 23 avqust 2023-cü ildə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını, hər iki dövlət başçısının iştirakları ilə cari il iyulun 2-də Bakı şəhərində Özbəkistan səfirliyinin yeni binasının açılışını və həmin tarixdə dövlət başçıları tərəfindən "Özbəkistan" parkının təməlinin qoyulmasını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində baş prokurorlar tərəfindən mövcud sahəvi əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında 2026-2027-ci illər üçün nəzərdə tutulmuş Əməkdaşlıq Proqramı" imzalanıb.

Proqramda tərəflərin "Cinayət yolu əldə edilmiş aktivlərinin xaricdən qaytarılması mexanizmləri" mövzusunda seminarda, prokurorluq orqanlarının kadr hazırlığı və ixtisas artırılması üzrə Özbəkistan Respublikasının Hüquq-mühafizə Akademiyasının illik konfransında iştirakları, həmçinin "Prokurorun işlərə məhkəmələrdə baxılmasında iştirakı" mövzusunda seminarın və "Prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması" mövzusunda "dəyirmi masa"nın təşkili nəzərdə tutulub.

Bundan başqa, baş prokuror Kamran Əliyev sentyabrın 25-də Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının 4-cü iclasında iştirak edib.

Baş prokuror çıxışında mühüm tədbirin təşkilinə görə Özbəkistan Respublikasının baş prokuroru Niqmatulla Yuldaşevə dərin minnətdarlığını bildirib, Azərbaycan Respublikasında ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi rəqəmsallaşma və elektron idarəetmənin inkişafını vurğulayaraq, Azərbaycan Prokurorluğunun fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini işıqlandırıb.

Nümayəndə heyətinin səfəri davam edir.

# Nazirlər Kabinetində büdcə məsələlərinə həsr olunmuş geniş iclas

Sentyabrın 25-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi və hökumət üzvlərinin iştirakı ilə "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2026-cı il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nə həsr olunmuş geniş iclas keçirilib.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, "2026-cı il dövlət və icmal büdcə layihələri və növbəti üç il üçün icmal büdcənin göstəriciləri və 2026-cı il və növbəti üç il üzrə sosial-iqtisadi inkişaf proqnozları" aidiyyəti qurumlar tərəfindən Nazirlər Kabinetinə təqdim edilib.

Sözügedən layihələr iclasda müzakirə olunub.

Baş nazir Əli Əsədov növbəti ilin dövlət büdcəsi layihəsinin əsas göstəriciləri barədə ətraflı məlumat verib.

Maliyyə naziri Sahil Babayevin "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri haqqında", iqtisadiyyat naziri Mikayıl Cabbarovun "Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında" və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin "2026-cı il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri barədə" məruzələri dinlənilib.

Daha sonra Baş nazir qarşıda duran əsas vəzifələri və tapşırıqları iclas iştirakçılarının diqqətinə çatdırıb.

İclasın yekununda "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2026-cı il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" barədə layihələrin "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi barədə qərar qəbul olunub.

# Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranın Bəndər-Abbas limanında olub



Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfəri çərçivəsində Bəndər-Abbas şəhərində yerləşən "Şimal-Cənub" nəqliyyat dəhlizinin vacib tərkib hissəsi olan limana baş çəkib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti limana baxış keçirib və onun infrastrukturu ilə tanış olub. İranın yol və şəhərsalma nazirinin müavini Səid Rəsuli liman haqqında geniş təqdimat verib və onun fəaliyyəti haqqında ətraflı məlumat təqdim edib. Görüş zamanı mümkün əməkdaşlıq imkanları ətrafında müzakirələr aparılıb.

Bəndər-Abbas şəhərinə səfər zamanı Baş nazirin müavini Şahin Mustafayev ilə Hormuzqan əyalətinin valisi Məhəmməd Aşouri Taziani arasında görüş keçirilib və əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda Çin Xalq Respublikasının 76-cı ildönümü münasibətilə rəsmi qəbul keçirilib

Sentyabrın 25-də "Gülüstan" sarayında Çin Xalq Respublikasının 76-cı ildönümünə həsr olunmuş təntənəli qəbul keçirilib.







AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan hökumətinin yüksəkvəzifəli rəsmiləri, diplomatik korpusun nümayəndələri, ictimaiyyətin tanınmış simaları, Çin icmasının üzvləri iştirak ediblər.

Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey qonaqları salamlayaraq qeyd edib ki, 76 il ərzində Çin xalqı Kommunist Partiyasının rəhbərliyi ilə milli şəraitə uyğun inkişaf yolunu seçib, sürətli iqtisadi tərəqqi və uzunmüddətli sosial sabitlik kimi möcüzələr yaradıb. "Çin yoxsulluqla mübarizədə böyük uğurlar qazanaraq 800 milyon insanı yoxsulluqdan xilas edib və hərtərəfli orta rifah cəmiyyəti qurub. Çinin nailiyyətləri yalnız öz xalqına deyil, bütün dünyaya fayda verir", - deyə diplomat vurğulayıb.

Lu Mey bildirib ki, Çin iqtisadiyyatı illərdir qlobal artımın əsas mühərriklərindən biri olub və dünya iqtisadiyyatına 30 faizlik töhfə verib. Bu ilin ilk yarısında Çin iqtisadiyyatı 5,3 faiz artıb. Ölkə yüksəkkeyfiyyətli inkişaf və Çin tipli modernləşmə yolunu davam etdirərək dünya iqtisadiyyatına daha çox sabitlik və imkanlar qazandıracaq. "Çinin texnoloji yenilikləri açıq və inklüzivdir. Biz orijinal texnologiyalarımızı və innovasiyalarımızı dünya ilə bölüşməyə hazırıq", - deyə Lu Mey qeyd edib.

Çıxışında Çin Xalq Respublikasının qlobal sülh və sabitlik uğrunda fəaliyyətini diqqətə çatdıran səfir Lu Mey Sədr Si Cinpinin irəli sürdüyü Qlobal Təhlükəsizlik Təşəbbüsü və Qlobal Sivilizasiya Təşəbbüsünün əhəmiyyətini vurğulayıb. O, həmçinin Çinin çoxtərəfliliyə sadiq olduğunu, ədalətli beynəlxalq idarəetmə sistemi qurmaq üçün beynəlxalq ictimaiyyətlə əməkdaşlığa hazır olduğunu bildirib.

Səfir Lu Mey xüsusi olaraq Azərbaycan-Çin münasibətlərinə toxunaraq qeyd edib ki, cari il ikitərəfli əlaqələr üçün həqiqətən məhsuldar olub. Prezident İlham Əliyevin Çinə iki rəsmi səfəri zamanı ölkələr arasında Əhatəli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat imzalanıb, "Bir kəmər, bir yol", yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində mühüm razılaşmalar əldə olunub.

"Sədr Si Cinpin və Prezident İlham Əliyevin strateji rəhbərliyi sayəsində ikitərəfli münasibətlərimiz yeni zirvələrə yüksəlir. Liderlərimiz yalnız səmərəli işgüzar münasibətlər deyil, həm də səmimi şəxsi dostluq qurublar. Bu, ölkələrimiz arasında etimad, bərabərlik və dostluğun bariz nümunəsidir", - deyə səfir vurğulayıb.

Çin səfiri bildirib ki, iki ölkə bir-birinin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir, həmçinin BMT, ŞƏT kimi beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. İqtisadi-ticarət əlaqələri rekord həddə çatıb, Çindən Avropaya yük daşıyan dəmir yolu ekspresi ilə tranzit daşımaların həcmi isə ikiqat artmaq üzrədir. İnsanlararası mübadilə də intensivləşir, viza rejiminin sadələşdirilməsi nəticəsində qarşılıqlı səfərlər çoxalıb, azərbaycanlı gənclər arasında Çin dili və mədəniyyətinə maraq daha da güclənib.

Lu Mey çıxışını belə tamamlayıb: "Çin Azərbaycanla birlikdə dövlət başçılarımız arasında əldə olunan razılaşmaları tam şəkildə icra etməyə hazırdır. Əminik ki, Çinin və Azərbaycanın əhatəli strateji tərəfdaşlığı parlaq gələcəyə malikdir və xalqlarımıza daha çox fayda gətirəcək".

Daha sonra tədbirdə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev çıxışında Azərbaycan-Çin münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.

"Ötən il Astanada dövlət başçılarımız tərəfindən imzalanmış Birgə Bəyanat ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Cari ilin aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində isə ölkələrimiz arasında Əhatəli Strateji Tərəfdaşlığın qurulması barədə Birgə Bəyanat imzalanıb və əməkdaşlığın mühüm sahələrini əhatə edən 20-dən çox sənəd qəbul olunub.

Bu gün bütün sahələrdə əlamətdar uğurlar qazanmış Çin Xalq Respublikası böyük beynəlxalq nüfuz qazanaraq dünyanın ən güclü dövlətlərindən birinə çevrilib. Çin Azərbaycanın əsas iqtisadi və ticarət tərəfdaşlarından biridir, eyni zamanda ölkəmiz Çinin Cənubi Qafqazdakı ən iri ticarət tərəfdaşıdır. Bu ilin ilk yeddi ayında ticarət dövriyyəsi 26 faiz artıb.

1995-ci ildən 2025-ci ilin birinci yarısınadək Çindən Azərbaycana yönələn birbaşa investisiyaların həcmi 942,3 milyon ABŞ dolları təşkil edib. Azərbaycanın Çinə yatırdığı ümumi investisiyaların məbləği isə 2,1 milyard ABŞ dollarıdır ki, bunun 1,9 milyardı Dövlət Neft Fondu tərəfindən həyata keçirilib.

Azərbaycanın son illər "yaşıl enerji" gündəliyini fəal irəlilətməsi çərçivəsində Çin əsas tərəfdaşlardan biridir. "Yaşıl enerji" konsepsiyasının icrasında Çinin innovativ texnoloji potensialına güvənilməsi bu sahədə əməkdaşlığın strateji əhəmiyyətini təsdiqləyir.

Humanitar sahə də Azərbaycan-Çin münasibətlərində mühüm istiqamətlərdən biridir. Bu sahədə həyata keçirilən layihələr xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanı gücləndirir. Universitetlərdə Çin dili və ədəbiyyatı tədris olunur, Konfutsi institutları fəaliyyət göstərir.

Hazırda ikitərəfli münasibətlərin gündəliyi genişdir. Əməkdaşlıq iqtisadi-ticarət, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, rəqəmsal inkişaf, humanitar, turizm və digər sahələri əhatə edir. Dövlət başçılarının tapşırıqlarına uyğun olaraq bu məsələlər Hökumətlərarası Birgə Komissiya çərçivəsində diqqət mərkəzində saxlanılır", - deyə Şahin Mustafayev əlavə edib.

Azərbaycan nümayəndə heyətinin bu ay Çinə işgüzar səfərinin baş tutduğunu qeyd edən Şahin Mustafayev bildirib ki, ölkəmiz 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisində iştirak edib. "Ölkəmiz sərgidə "Invest in Azerbaijan" adlı milli stendlə təmsil olunub. Səfər çərçivəsində Azərbaycan-Çin Təbliği tədbiri və İnvestisiya üzrə İkili İşçi Qrupun ilk iclası keçirilib, sənədlər imzalanıb, Çinin müxtəlif region və müəssisələrinə səfərlər təşkil olunub.

"Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və digər layihələr ölkəmizin Çini Avropa ilə birləşdirən ən qısa və əlverişli marşrut kimi strateji rolunu daha da möhkəmləndirir.

Çin şirkətləri Azərbaycanda yaradılmış əlverişli və şəffaf biznes mühitindən səmərəli faydalanır. 2025-ci il avqustun 1-nə olan məlumata görə, ölkəmizdə sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində 347 Çin şirkəti aktiv fəaliyyət göstərir.

Prezident İlham Əliyevin avqustun sonu-sentyabrın əvvəlində Çinə işgüzar səfəri zamanı Sədr Si Cinpinlə görüşü ikitərəfli münasibətlərə yeni təkan verib. Azərbaycan Prezidentinin "ŞƏT Plyus" Sammitində və Çinin qələbəsinin 80-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirakı bir daha Azərbaycan-Çin münasibətlərinin strateji xarakterini təsdiqləyib və əməkdaşlığın böyük perspektivlər açdığını nümayiş etdirib.

Qarşılıqlı hörmət və etimada əsaslanan qədim və zəngin ənənələr üzərində qurulmuş Azərbaycan-Çin münasibətləri dinamik inkişaf etməkdədir. Prezident İlham Əliyev yaxın dost və etibarlı tərəfdaş olan Çinlə əməkdaşlığın genişləndirilməsinə xüsusi əhəmiyyət verir", - deyə Şahin Mustafayev diqqətə çatdırıb.

Tədbir bədii hissə ilə davam edib. Tədbir iştirakçıları burada təqdim edilən sərgidə Çin mədəniyyətinin nümunələri ilə tanış olublar.

# Milli Məclisin Sədri Sahibə Qafarova və Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilani arasında telefon danışığı olub





Sentyabrın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ilə Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilani arasında telefon danışığı olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan və Pakistan arasında strateji münasibətlərin dostluq və qardaşlıq prinsipləri əsasında uğurla inkişafından razılıq ifadə olunub. İki ölkə arasında əlaqələrin dərinləşməsində Prezident İlham Əliyevin Pakistana səfərlərinin, Pakistanın Baş nazirlərinin Azərbaycana səfərlərinin və imzalanmış sənədlərin xüsusi rolu vurğulanıb.

Tərəflər dost və qardaş ölkələrimiz arasında əlaqələrin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da səmərəli münasibətlər qurulduğunu qeyd edərək, qanunvericilik orqanlarının həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində sıx əməkdaşlıq etdiklərini ifadə ediblər.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Nyu Yorkda Sloveniya Prezidentinin həyat yoldaşı Ales Musarla görüşüb

Sentyabrın 25-də Nyu Yorkda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qarşı tərəfin müraciəti əsasında Sloveniya Prezidentinin həyat yoldaşı Ales Musar ilə görüşüb.



AZƏRTAC-ın məlumatına görə, görüşdə Ales Musar Sloveniya Respublikasının Hökuməti tərəfindən 1998-ci ildə mina qurbanlarına dəstək məqsədilə yaradılmış "İnsan Təhlükəsizliyinin Artırılması" (ITF) adlı humanitar qeyri-kommersiya təşkilatının fəaliyyəti barədə məlumat verdi.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizin üzləşdiyi mina probleminə diqqəti çəkdi. Leyla Əliyeva qeyd etdi ki, minalar Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə və "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin öz yurdlarına qaytarılması prosesinə ciddi maneə törədir. Buna baxmayaraq, Azərbaycan tərəfindən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyətinin aparıldığı və mina qurbanlarına dəstəyin göstərildiyi, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə tədbirlərinin həyata keçirildiyi bildirildi.

Söhbət zamanı dünyada su qıtlığı problemi, Xəzər dənizində suyun səviyyəsinin azalması ilə bağlı fikir mübadiləsi aparıldı, Sloveniyada keçirilən Bled Su Forumunun əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycan ilə Sloveniya arasında bu sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olundu.

# Yüksəksəviyyəli iclas

Sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Xarici İşlər Nazirləri Şurasının Azərbaycan Respublikasının Sədrliyi ilə qeyri-rəsmi iclası keçirilib.




Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclas zamanı AQEM-ə üzv dövlətlərin xarici işlər nazirləri və digər yüksəksəviyyəli nümayəndələri tərəfindən 2024-cü ilin dekabrından etibarən Azərbaycanın AQEM-də Sədrliyi dövründə əldə olunmuş tərəqqi müzakirə edilib, aktual regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov AQEM Nazirlər Şurasının sədri qismində açılış nitqi ilə çıxış edərək sədrliyin müxtəlif sahələr, o cümlədən bağlantılar, rəqəmsallaşma və dayanıqlılıq istiqamətləri üzrə müəyyən olunmuş strateji prioritetlərini vurğulayıb.

Nazir çıxışında AQEM-in institusional inkişafı və tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi istiqamətində göstərilən səylər və əldə olunan tərəqqi barədə məlumat verib. Bu çərçivədə təşkilata üzv dövlətlərin ali təhsil müəssisələri arasında innovativ əməkdaşlıq platforması olan AQEM Aparıcı Universitetlərin Tərəfdaşlıq Şəbəkəsinin fəaliyyətə başlaması, AQEM Biznes Şurası və Biznes Forumunun, habelə 13-cü AQEM Beyin Mərkəzləri Forumunun Azərbaycanda uğurla təşkil edilməsi vurğulanıb.

Ceyhun Bayramov həmçinin Azərbaycanın əsas təşəbbüslərinin, o cümlədən AQEM Qadınlar Şurasının yaradılması kimi flaqman təşəbbüsün və AQEM Maliyyə Sammitinin təsis olunması istiqamətində əldə edilmiş irəliləyişin əhəmiyyətinə diqqət çəkib. Sözügedən yeni məsləhətçi orqanların yaradılmasının üzv dövlətlər arasında tematik əməkdaşlığı gücləndirəcəyi bildirilib.

AQEM Baş katibi və təşkilata üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri də bəyanatlarla çıxış ediblər. Natiqlər Azərbaycan Sədrliyinin nümunəvi liderliyini, baxışını və AQEM-i gücləndirməyə sadiqliyini yüksək qiymətləndiriblər. Onlar AQEM çərçivəsində institusionallaşma və nəticəyönümlü qarşılıqlı fəaliyyətin təşviqində sədrliyin səylərinə diqqət çəkərək, əsas layihələrin irəliyə aparılmasında Azərbaycanın göstərdiyi təşəbbüslərə görə minnətdarlıqlarını ifadə ediblər. Həmçinin bu təşəbbüslərin Asiya boyunca dialoq, etimad quruculuğu və çoxtərəfli əməkdaşlıq platforması kimi AQEM-in səmərəliliyini əhəmiyyətli dərəcədə artıracağı bildirilib.

İclas əlamətdar qərarların qəbulu, xüsusilə iki yeni məsləhətçi orqanın - AQEM Maliyyə Sammiti və AQEM Qadınlar Şurasının yaradılması ilə yekunlaşıb.

Nazirlər Şurası eyni zamanda İkinci Dünya müharibəsinin bitməsi və Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 80-ci ildönümü münasibətilə bəyanatlar qəbul edib. Bu bəyanatlar vasitəsilə AQEM-ə üzv dövlətlər İkinci Dünya müharibəsində qələbə üçün verilmiş tarixi qurbanları ehtiramla anıblar və çoxtərəfliliyə sadiqliklərini bir daha təsdiq ediblər. Onlar Asiyada və onun hüdudlarından kənarda sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqində AQEM-in dialoq, etimad quruculuğu və əməkdaşlıq platforması kimi rolunu vurğulayıblar. Nazirlər Şurasının Bəyanatında Azərbaycanın AQEM Sədrliyinin səyləri yüksək qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycan Respublikası 28 dövlətin üzv olduğu Asiyanın ən böyük regional platforması AQEM-ə 2024-cü ilin dekabr ayından başlayaraq iki il müddətinə sədrlik edir. Müxtəlif çoxtərəfli formatlarda nümunəvi liderliyin davamı olaraq Azərbaycanın sədrliyi "Daha güclü AQEM: Asiyada Bağlantılar, Rəqəmsallaşma və Dayanıqlı İnkişaf" şüarı altında AQEM regionunda dialoq və nəticəyönümlü əməkdaşlığın təşviqini prioritet elan edib.

# Azərbaycanla Böyük Britaniya arasında əlaqələr qarşılıqlı etimada əsaslanır



Sentyabrın 25-də Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Lord Aamer Safrazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, işçi qrupunun üzvü Səməd Seyidov qonaqları salamlayaraq onları Milli Məclisdə görməkdən məmnunluğunu bildirib. O, parlamentlərarası əlaqələrin ölkələr arasındakı münasibətlərin inkişafına müsbət təsirindən danışıb və iki ölkə arasındakı əlaqələrin tarixi, parlament diplomatiyasının əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə dövlətlərimiz arasında mövcud olan siyasi və parlamentlərarası münasibətlərin əhəmiyyətini vurğulayıb, bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən Böyük Britaniya parlamentinin Lordlar Palatasının üzvü Aamer Safraz ADA Universitetində 1-ci Azərbaycan-Birləşmiş Krallıq Siyasət Dialoqunun səmərəli olduğunu bildirib. O qeyd edib ki, bütün sahələrdə tərəfdaşlığın genişləndirilməsi ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayacaq.

Görüşdə Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sevinc Fətəliyeva, Zaur Şükürov, Tural Gəncəliyev çıxış edərək ölkələrimiz arasında münasibətlərin inkişafında müxtəlif səviyyələrdə, o cümlədən diplomatik dialoqun önəmini qeyd ediblər. Bildirilib ki, Azərbaycan və Böyük Britaniya arasında əlaqələr iqtisadi, siyasi, humanitar, enerji sahələri ilə yanaşı, digər sahələri də əhatə edir və qarşılıqlı etimada əsaslanan münasibətləri əks etdirir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və Estoniya arasında əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov estoniyalı həmkarı Marqus Tsaxkna ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, nazirlər Azərbaycan və Estoniya arasında dialoqun siyasi məsləhətləşmələr və qarşılıqlı səfərlər vasitəsilə intensivləşdirilməsinin vacibliyini vurğulayaraq, ikitərəfli əlaqələrin genişləndirilməsi imkanlarını qeyd ediblər. Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın regionda sülh quruculuğu səyləri, o cümlədən Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və Vaşinqton sammitinin yekunları barədə estoniyalı həmkarını məlumatlandırıb.

Tərəflər BMT və digər beynəlxalq platformalarda, ikitərəfli və çoxtərəfli çərçivədə əməkdaşlığı dərinləşdirməyə hazır olduqlarını bir daha təsdiqləyiblər.

# Dövlət Suverenliyi Günü ilə əlaqədar işğaldan azad edilmiş ərazilərə yürüş




Milli Məclisin bir qrup deputatı və parlament Aparatının əməkdaşları "Konstitusiya və Suverenlik İli" çərçivəsində Dövlət Suverenliyi Günü münasibətilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yürüş ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu ərazilərə ilk dəfə təşkil olunan bu yürüşdə Milli Məclisin komitə sədri Şahin İsmayılov, deputatlardan Şahin Seyidzadə, Sabir Hacıyev, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və Aparatın bir qrup əməkdaşı iştirak ediblər. Yürüş Daşaltı dərəsindən keçən eyniadlı çay boyunca həyata keçirilib.

Hazırda bu marşrutun keçdiyi ərazilərdə geniş abadlıq işləri aparılır. Yaxın gələcəkdə azad Qarabağın bu ərazisi də təbiətsevərlərin sevimli məkanlarından biri olacaq.

***"Azərbaycan"***

# Nyu Yorkda Azərbaycan və BƏƏ arasında ailə və qadın məsələləri üzrə əməkdaşlıq müzakirə edilib

Nyu Yorkda səfərdə olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ilə Birləşmiş Ərəb Əmirliklərinin ailə naziri Sana Suhaili arasında sentyabrın 24-də görüş keçirilib.



AZƏRTAC-ın məlumatına görə, Bahar Muradova Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri də daxil olmaqla dost ölkələrlə əlaqələrini möhkəmləndirdiyini və bu münasibətlərin gələcəkdə daha geniş əməkdaşlığa yol açdığını bildirib. O həmçinin qeyd edib ki, qarşılıqlı təcrübə mübadiləsi və birgə layihələr gələcək əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcək.

Komitə sədri çıxışı zamanı Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasından sonra Vaşinqtonda sülh sazişinin paraflandığını diqqətə çatdıraraq, bu hadisəni yeni mərhələnin başlanğıcı kimi qiymətləndirib. Sülhün əldə olunmasının ölkəmizin daha genişmiqyaslı hədəflərə doğru irəliləməsinə imkan yaradacağını qeyd edib.

Bahar Muradova dövlət komitəsinin fəaliyyət istiqamətləri barədə də məlumat verib. O, qohum və erkən nikahlarla bağlı mənfi stereotiplərin aradan qaldırılması üçün hüquqi mexanizmlərin tətbiq edildiyini qeyd edib, valideyn-övlad münasibətlərinin gücləndirilməsi, uşaqların təşəbbüslərinə dəstək göstərilməsi, qızların təhsili və qadınların iqtisadi və sosial səlahiyyətlərinin artırılması istiqamətində həyata keçirilən layihələr barədə danışıb. Həmçinin regionlarda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri haqqında məlumat verib. O qeyd edib ki, bu mərkəzlər icma əsaslı fəaliyyət göstərərək əhalinin bütün təbəqələrinə, xüsusilə də həssas qruplara - qadınlara və uşaqlara hüquqi maarifləndirmə xidməti göstərir, ailələrin sosial problemlərinin həllinə dəstək olur.

BƏƏ-nin ailə naziri Sana Suhail isə bildirib ki, hər iki dövlət ortaq dəyərlərə və mədəniyyətə malikdir. Biz Azərbaycanı təbii tərəfdaş ölkə olaraq görürük və təcrübəsini öyrənməkdə maraqlıyıq. Prioritetlərimiz arasında qadınların parlamentdə, sahibkarlıqda və təhsil sahəsində fəallığının artırılması, həmçinin ailə institutunda mövqeyinin gücləndirilməsi yer alır. Azərbaycanda bu sahədə həyata keçirilən qanunvericilik islahatları, xüsusilə də qohum nikahlarının qadağan edilməsi istiqamətində atılan addımlar diqqətimizi cəlb edir", - deyə nazir bildirib.

Nazir həmçinin Azərbaycanda Ailə və Uşaq Dəstək Mərkəzlərinin fəaliyyəti ilə maraqlandığını qeyd edib və gələcək əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyini vurğulayıb.

Görüş ikitərəfli əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələrlə davam edib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 281** **Bakı şəhəri, 23 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 sentyabr tarixli 209 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 823 (Cild I); 2024, № 1, maddə 82; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş "Baytarlıq normalarına cavab verən məhsulların sahibinə həmin məhsulların satışına icazə verən ekspertiza aktının təqdim edilməsi və ya məhsulun (ətin, heyvan və quş cəmdəklərinin, digər məhsulların) üzərində nişan qoyulması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci və 1.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2. Ətin, heyvan və quş cəmdəklərinin, digər ət məhsullarının ekspertiza aktı əsasında baytarlıq damğası və ştampları ilə nişanlanması məcburidir.

1.3. Ət və ət məhsullarının, həmçinin digər heyvan mənşəli məhsulların müayinədən keçirilməsini müəssisə və təşkilatların baytarlıq istehsalat-nəzarət bölməsində çalışan və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən uçota alınmış baytarlıq mütəxəssisləri həyata keçirirlər.".

2. 1.4-cü bənddə "rayon və şəhər dövlət baytarlıq müfəttişinin" sözləri "Agentliyin" sözü ilə əvəz edilsin.

3. 1.5-ci bənddə "rayon və şəhər dövlət baytarlıq müfəttişləri" sözləri "Agentlik" sözü ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 1.9-1-ci bənd əlavə edilsin:

"1.9-1. Ekspertiza aktının verilməsi baytarlıq mütəxəssisinin rəyinə əsasən Agentlik tərəfindən Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi vasitəsilə həyata keçirilir.".

5. 2.2-ci bəndin ikinci abzasında "yuxarı hissəsində "Azərbaycan Respublikası", aşağı hissəsində" sözləri "təsvirində" sözü ilə əvəz edilsin.

6. 2.3-cü və 2.4-cü bəndlərdə "Baytarlıq xidməti" sözləri "Dövlət baytarlıq nəzarəti" sözləri ilə əvəz edilsin.

7. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Baytarlıq damğa və ştamplarında göstərilən rəqəmlər Agentlik tərəfindən müəyyənləşdirilir.".

8. 4.4-cü bənddə "müşayiətedici baytarlıq şəhadətnaməsi (sertifikatı)" sözləri "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq verilən müşayiətedici baytarlıq sənədləri (baytarlıq arayışı və ya baytarlıq şəhadətnaməsi)" sözləri ilə əvəz edilsin.

9. Həmin Qaydalara Əlavə - "Ət və ət məhsullarının nişanlanması üçün baytarlıq damğa və ştamplarının nümunələri" üzrə:

9.1. 1-ci və 2-ci hissələrin mətnindən "Azərbaycan Respublikası" sözləri çıxarılsın;

9.2. 3-cü və 4-cü hissələrin mətnində "BAYTARLIQ XİDMƏTİ" sözləri "DÖVLƏT BAYTARLIQ NƏZARƏTİ" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 282** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 iyul tarixli 164 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kənd təsərrüfatı təyinatlı torpaqlarda tikinti əmsalından qismən istifadə edildikdə, torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, həmin hissədə tikililərin inşası üçün yol verilən həddin hesablanması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 283** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 84-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 295 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 284** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 332 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I); 2024, № 2, maddə 209; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın 1.1-ci bəndinin birinci abzasında "səfirliklərində," sözü "diplomatik nümayəndəliklərində və" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 324 (Cild I); 2024, № 2, maddə 242; 2025, № 5, maddə 516) ilə təsdiq edilmiş "Sığortalı tərəfindən ödənilmiş dövlət icbari şəxsi sığorta haqları və sığortaolunanlar barədə sığortaçıya verilən hesabatın forması və onun verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qaydaya 6 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ödənilmiş sığorta haqları və sığortaolunanlar barədə hesabat forması" üzrə:

2.2.1. adında "əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin" sözləri "orqanı əməkdaşlarının" sözləri ilə əvəz edilsin;

2.2.2. Qeyd hissəsində "başçılarına" sözü "rəhbərlərinə" sözü ilə, "vəzifə tutan şəxslərə" sözləri "xidmət əməkdaşlarına" sözləri ilə və "xidməti həyata keçirən şəxslərə" sözləri "xidmət əməkdaşlarına" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Sumqayıt** | Sumqayıt | **01** |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Ucar** | Ucar, Kürdəmir, Zərdab | **01** |
| 3. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **02** |
| 4. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naftalan** | Naftalan, Gəncə, Goranboy, Tərtər, Göygöl | **03** |
| 5. | **Energetika naziri** Pərviz Şahbazov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **10** |
| 6. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Salyan** | Salyan, Neftçala | **10** |
| 7. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Cəlilabad** | Cəlilabad, Masallı, Yardımlı | **10** |
| 8. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Tərtər** | Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Xocavənd, Şuşa | **10** |
| 9. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | **Samux** | Samux, Gəncə, Kəlbəcər | **10** |
| 10. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Tərtər** | Tərtər, Ağcabədi, Ağdam, Füzuli | **14** |
| 11. | **Baş prokuror** Kamran Əliyev | **Gəncə** | Gəncə, Göygöl, Samux, Kəlbəcər | **17** |
| 12. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Zərdab** | Zərdab, Ağcabədi, Ucar, Göyçay, Kürdəmir | **17** |
| 13. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **17** |
| 14. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Şamaxı** | Şamaxı, Qobustan | **17** |
| 15. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **23** |
| 16. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Gəncə** | Gəncə, Samux, Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Kəlbəcər | **24** |
| 17. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **24** |
| 18. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **24** |
| 19. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Göygöl** | Göygöl, Daşkəsən | **24** |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Kürdəmir** | Kürdəmir, Uçar, Zərdab | **27** |
| 21. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Laçın | **29** |
| 22. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **31** |
| 23. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **31** |
| 24. | **Mədəniyyət naziri** Adil Kərimli | **Xızı** | Xızı, Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan | **31** |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Qəbələ** | Qəbələ, Oğuz | **31** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## "Azərbaycan və BƏƏ münasibətləri strateji müttəfiqlik mərhələsinə qədəm qoyub"

Sentyabrın 16-da Qarabağın incisi olan Şuşa şəhərində Prezident İlham Əliyevlə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında keçirilmiş görüş yalnız ikitərəfli münasibətlərin dərinləşməsi baxımından deyil, həm də regionda yeni əməkdaşlıq imkanlarının açılması ilə tarixə düşdü.



BƏƏ ilə Azərbaycanın iqtisadiyyat, enerji, qida təhlükəsizliyi, mədəniyyət kimi sahələrdə əməkdaşlıq etdiyini qeyd edən Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında deyib ki, liderlərin şəxsi dostluq münasibətləri, qarşılıqlı hörmət və ehtiram iki ölkə arasında əməkdaşlıq əlaqələrini daha da gücləndirir.

Prezident İlham Əliyev bu səfərin dostluq və qardaşlıq əlaqələrinə yeni təkan verəcəyini vurğulayıb. Şuşa artıq Azərbaycanın diplomatik şəhərinə çevrilir. Görüşün məhz işğaldan azad olunmuş ərazidə baş tutması strateji bir addım idi. İmzalanan sənədlər, xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə iki ölkə arasında münasibətləri daha da dərinləşdirəcək. "Dövlət başçımız ərazidə bərpaolunan enerji istiqamətində BƏƏ şirkətlərinin roluna toxunaraq, ölkədə istifadəyə verilmiş ilk günəş-elektrik stansiyasının məhz bu əməkdaşlığın nəticəsi olduğunu xatırladıb. Yaxın illərdə bir neçə qiqavatlıq "yaşıl enerji" istehsalı da ölkəmizdə BƏƏ-nin dəstəyi ilə reallaşacaq. "Masdar" şirkətinin Azərbaycanda inşa etdiyi nəhəng günəş-elektrik stansiyası MDB məkanında ən böyük layihə hesab olunur", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda yaranan yeni reallıq ölkəmizin beynəlxalq nüfuzunu daha da artırıb. BƏƏ liderinin Azərbaycanın regionda sülh və əmin-amanlığın təmin olunmasında oynadığı rolu yüksək qiymətləndirməsi və Ermənistanla sülh sazişi istiqamətində əldə edilmiş nailiyyətləri alqışlaması buna bariz nümunədir. Şuşada keçirilən görüş çərçivəsində enerji, nəqliyyat, turizm, süni intellekt, təhsil və biznes sahələrini əhatə edən 15-dən artıq sənəd imzalanıb. Onların sırasında enerji və bərpaolunan enerji üzrə anlaşma memorandumları, turizm və mədəniyyət sahəsində əməkdaşlıq sənədləri, süni intellekt və rəqəmsal inkişaf sahəsində razılaşmalar, SOCAR və ADNOC arasında strateji əməkdaşlıq sazişi xüsusi əhəmiyyət daşıyır.

Pərvanə Vəliyeva bildirib ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin enerji əməkdaşlığı beynəlxalq miqyasda da diqqət çəkir: "Dubayda keçirilmiş UNFCCC COP28 zamanı əldə edilən təcrübə Bakıda təşkil olunan COP29-un uğurlu keçirilməsinə töhfə vermişdi. Bundan əlavə, "COP28-COP30" troika formatı (BƏƏ-Azərbaycan-Braziliya) qlobal iqlim gündəliyində üç ölkənin sıx əməkdaşlığını təmin edir".

Deputat qeyd edib ki, Şuşadakı görüş Azərbaycan və BƏƏ münasibətlərinin artıq klassik diplomatik əməkdaşlıq çərçivəsini aşaraq strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyduğunu bir daha təsdiqləyib. Bu əməkdaşlıq təkcə enerji və iqtisadi sahələrlə məhdudlaşmır, həm də mədəniyyət, təhsil, turizm və regional təhlükəsizlik istiqamətlərini əhatə edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

**Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli iş aparır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.**



## İkinci Qarabağ müharibəsi: zəfərə gedən yolda şərəf və qəhrəmanlıq salnaməsi

### Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti

Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etmişdir.

2020-ci ilin yanvarında 14-cü dəfə Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident İlham Əliyev moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?" sualına cavab olaraq Prezident İlham Əliyevin "Bakıya" cavabı böyük önəm kəsb edir.

Dövlət başçısının bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın region ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır. Eyni zamanda dövlət başçısı vurğuladı ki, Azərbaycan üçün onun milli maraqları həmişə birinci yerdədir və buna görə də qazandığımız bütün nailiyyətlər xalqımızın müstəqilliyə sadiqliyinə, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirdiyimizə görə əldə olunub.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çox çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısının qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 20 ildən artıq müddətdə ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilmişdir. Nəticədə Azərbaycan yalnız regionda deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Ona görə də bu gün dünyanı narahat edən və həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Bütün bunlarla yanaşı, 2003-cü ildən keçən dövr ərzində Azərbaycan Prezidenti İlham Əliyev mühüm beynəlxalq tədbirlərdə dəfələrlə Ermənistanın işğalçılıq siyasətini ifşa edərək təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini bütün dünyaya bəyan etmiş, həmçinin Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratmışdı.

İlk növbədə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 4 qətnamə (822, 853, 874, 884) icra edilməli idi. 2021-ci il iyunun 26-da Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə bildirdi ki, dövlətimiz Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut etməli idi: "Nə üçün sübut etməli idik? Çünki Ermənistan, onun xaricdəki havadarları, erməni lobbisi vəziyyətlə bağlı tam təhrif edilmiş mənzərə ortaya qoyurdular. Əfsuslar olsun ki, ermənipərəst qüvvələr, Ermənistanın xaricdəki havadarları bu saxta reallığı gerçəyə çevirməyə çalışırdılar. Bizim isə imkanlarımız çox məhdud idi. Ona görə beynəlxalq müstəvidə real həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, mötəbər beynəlxalq təşkilatların qərarlarını qəbul etdirmək bizim üçün başlıca vəzifə idi. Belə də oldu. Aparıcı beynəlxalq təşkilatlar - BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, hətta daim bizə qarşı ədalətsiz mövqe sərgiləyən Avropa Parlamenti, Avropa Şurası məcbur olub həqiqəti əks etdirən, bizim maraqlarımıza cavab verən qərar və qətnamələr qəbul etmişlər. Bu, məsələnin beynəlxalq tərəfi idi".

### Aprel döyüşləri - böyük hərbi Qələbənin başlanğıcı

Son 20 il ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaratdı. Azərbaycan Ordusu ən müasir silahlar və texnika ilə təchiz olundu. 2003-cü ildən keçən dövr ərzində hərbi xərclər 15 dəfədən çox artırılmışdır. Nəticədə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar Azərbaycan Ordusunun dünyanın ən qüdrətli silahlı qüvvələrinin sırasına daxil olmasına imkan yaratdı.

2016-cı ilin Aprel döyüşləri - Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi Qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü. 2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərdən çox böyük üstünlüklər verdi. İlk növbədə Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Bununla da Azərbaycan öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə 4 günlük döyüşlərin beynəlxalq əks-sədası dərhal eşidildi və Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması bir daha bütün dünyaya xatırladıldı.

2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. Bunun davamı olaraq, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür. Beləliklə, minlərlə hektar torpaq işğalçılardan azad edilmiş, on minlərlə hektar ərazi Azərbaycanın nəzarətinə keçmişdi.

Ali Baş Komandan hərbi potensialımıza yüksək diqqət göstərdiyimizi və bu sahədə böyük nailiyyətlər əldə etdiyimizi xatırladaraq qeyd etmişdi ki, ordumuzun döyüş qabiliyyəti artmış, uğurlu Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut etmiş və bu əməliyyat nəticəsində Azərbaycan Ordusu strateji yüksəkliklərə sahib olmuşdur: "Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir. Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir".

### "Valday"dan dünyaya bəyan edilən "Qarabağ Azərbaycandır və nida işarəsi"

Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistanın yürütdüyü siyasət, tutduğu mövqe tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmirdi. Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və həmin il oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, oktyabrın 25-26-da Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı panel müzakirələr zamanı, eləcə də iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitində Ermənistanın yürütdüyü faşist ideologiyasını, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini ifşa edən Prezident İlham Əliyev Ermənistanın baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi.

Diqqətə çəkək ki, "Valday" klubu müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu platforma kimi yüksək dəyərləndirilir və müasir dünya nizamının aktual məsələlərinin müzakirəsi üçün çox mühüm beynəlxalq məkandır. Bu baxımdan Prezident İlham Əliyev Ermənistanın təcavüzkar siyasətini tarixi və hüquqi əsaslarla ifşa edərək diqqətə çatdırdı ki, dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb və Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağın tarixi, əzəli Azərbaycan torpağı olduğunu bildirən dövlət başçısı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün davam etdiyini bildirərək dünyaya bəyan etdi: "Qarabağ Azərbaycandır və nida işarəsi". Prezident İlham Əliyevin münaqişənin həllinə dair hər zaman olduğu kimi qətiyyətli və prinsipial mövqeyi təkcə təcavüzkar Ermənistana deyil, eləcə də dünyaya bir mesaj oldu.

Eyni zamanda Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

### İkinci Qarabağ müharibəsində hərbi-diplomatik uğurlar

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarını azad etmək üçün Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini işğaldan azad etmək hüququna əsaslanaraq uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Nəticədə Azərbaycan dövləti 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələrini özü icra etdi.

2020-ci il noyabrın 8-i isə Azərbaycan tarixinə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini gerçəkləşdirdi. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirildi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı uğurlu əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasına da son qoydu.

### İnformasiya məkanında Ermənistanın işğalçılıq siyasətinin ifşası

Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələr 30 ildən artıq davam edən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, hərbi təcavüzü, yürütdüyü işğalçılıq siyasəti, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun bütün region üçün yaratdığı ciddi təhdidləri, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi.

Hərbi-diplomatik uğurlarla yanaşı, Azərbaycan Prezidentinin İkinci Qarabağ müharibəsi dövründə 30-a qədər xarici KİV təmsilçilərinə, xüsusilə Türkiyənin "TRT Haber", "CNN Türk", "Haber Global", "Habertürk", "NTV", "A Haber" televiziya kanalları, Rusiyanın "Rossiya-1", "Pervıy Kanal", "RBK" televiziya kanallarının, TASS, "İnterfax", "Ria Novosti" agentliklərinin, Almaniyanın "ARD", Böyük Britaniyanın "Sky News", ABŞ-nin "Fox News", İspaniyanın EFE televiziya kanallarının, İtaliyanın "Rai1" televiziya kanalının və "la Repubblica" qəzetinin, Fransanın "France 24" televiziya kanalı və "Le Figaro" qəzetinin, Yaponiyanın "Nikkei" qəzeti, o cümlədən nüfuzlu "Euronews", CNN, "BBC News", "Al Jazeera", "Al Arabiya" televiziya kanallarının müxbirlərinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb etdi.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il fevralın 26-da mətbuat konfransında Dağlıq Qarabağın statusu məsələsinə də "nida" işarəsi qoyaraq bildirdi ki, Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil, onları bu günə salan səbəblərdən biri də məhz o idi, xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar: "Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox xidmət göstərir". Hər zaman, xüsusilə Münxen Təhlükəsizlik Konfransında bəyan etdiyi kimi, Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, faktiki olaraq biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik və Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir.

Prezident İlham Əliyevin həm İkinci Qarabağ müharibəsinin gedişi dövründə, həm də 2021-ci il fevralın 26-da keçirilən geniş mətbuat konfransında tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanan məntiqli fikirləri dünyanın aparıcı KİV-də yayılaraq Azərbaycan, xüsusilə Qarabağ həqiqətlərini tutarlı faktlarla bütün dünyaya çatdırdı.

Nəticədə bu faktlar informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin Zəfər çalmasını şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında bildirdi ki, İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək və biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyuldu. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, biz döyüş meydanında da, informasiya məkanında da, siyasi müstəvidə də Qələbə qazandıq.

### Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və tarixi ədalətin bərpası

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Nəticədə İkinci Qarabağ müharibəsi son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 100 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərmana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edildi.

Bununla yanaşı, 1919-cu ildən 104 il sonra - 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı. Əziz şəhidlərimizin xatirəsinin bizim qəlbimizdə əbədi yaşayacağını və bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdiyimizi vurğulayan Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxışı zamanı demişdir: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başladığımızı xüsusi qeyd etdi və müasir tariximizin yeni dövrünün də məhz sentyabrın 20-dən (2023-cü il - E.Ə.) sonra başladığını diqqətə çatdıraraq vurğuladı ki, istər siyasi, istər hərbi müstəvidə, istərsə də ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin elə bil ki, son nidası idi.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 18-də imzaladığı sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə günü təntənəli şəkildə qeyd edilir. Bu mühüm və əlamətdar günün təsis olunması Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması ilə bağlıdır. Nəticədə bu gün Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni seperatçılarından təmizlənməsindən və tarixi ədalətin bərpasından artıq iki il keçir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il sentyabrın 19-da Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında imzaladığı sərəncamda vurğulanır ki, cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir: "Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

*Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".*

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, siyasi elmlər doktoru, professor***

# Azərbaycanın xarici siyasətinin uğurları

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində işgüzar səfərdə olarkən dünyaşöhrətli bir sıra şirkətlərin rəhbərləri ilə görüşüb. Əslində, bu bir ənənədir. Dövlətimizin başçısı xarici səfərlərində ayrı-ayrı şirkətlərin rəhbərləri ilə görüşlər keçirir. Bu da ölkəmizin hərtərəfli inkişafına, o cümlədən iqtisadi əlaqələrin şaxələnməsinə böyük dəstək verir.



## "Brookfield" ARDNF ilə əməkdaşlıqdan məmnundur

### Prezident İlham Əliyevin ABŞ-də bu şirkətin rəhbəri ilə görüşündə iqtisadiyyatın digər sahələrində də əlaqələrin qurulmasından danışıldı

Önəmli amillərdən biri də odur ki, həmin görüşlər bir qayda olaraq qarşı tərəfin müraciəti ilə baş tutur. Bu isə Azərbaycana olan maraqdan, dövlətimizin başçısına bəslənən hörmətdən qaynaqlanır. Nyu Yorkda da belə oldu. Prezident İlham Əliyev burada qarşı tərəfin müraciəti əsasında dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management"in baş icraçı direktoru Brüs Flətt ilə də görüşdü.

Brüs Flətt iki il əvvəl Azərbaycanda səfərdə olub. Odur ki, Prezidentimizlə görüş zamanı o vaxt ölkəmizdə müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını xatırladı. Eləcə də rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğuladı.

Prezident İlham Əliyev ölkəmizlə "Brookfield Asset Management" arasında qurulmuş əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirdi və bunun əməkdaşlığımızın uzunmüddətli strateji inkişafı üçün geniş imkanlar yaratdığını qeyd etdi. Söhbət zamanı Azərbaycanın bərpaolunan enerji sahəsindəki imkanları və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Qeyd etmək yerinə düşər ki, baş ofisi Kanadanın Toronto şəhərində yerləşən "Brookfield Asset Management" qlobal miqyasda alternativ investisiyaların idarə edilməsi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət infrastruktur, daşınmaz əmlak, bərpaolunan enerji, özəl kapital və kredit kimi əsas istiqamətlər üzrə investisiya portfellərini idarə edir. Hazırda "Brookfield"in idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon dollardan çoxdur. Şirkətin yaşı isə artıq 125-i ötüb. O, Nyu York, London, Sidney, Dubay, San-Paulo, Mumbay, Şanxay və dünyanın digər əsas maliyyə mərkəzlərində təmsil olunub.

"Brookfield" bütün qitələri əhatə edən 30-dan çox ölkədə fərqli sektorlarda 2500-dən çox aktiv investisiyaları idarə edir. Şirkətə investisiya edən 2000-ə yaxın institusional investor arasında nüfuzlu suveren fondlar, milli pensiya fondları, sığorta şirkətləri və digər idarəetmə şirkətləri var. Çoxillik uğurlu investisiya tarixinə malik "Brookfield" böyükmiqyaslı kapitala sahib olmasının yaratdığı imkanlar, ixitisaslaşmış əməliyyat bacarığı, qlobal əhatəsi və əlaqələri sayəsində həm institusional qurumların, həm də fiziki şəxslərin vəsait yatırdığı platformalara çevrilib.

"Brookfield" şirkəti regionlar üzrə yüksək səviyyədə diversifikasiya edilmiş portfelə sahibdir. Şirkət 550 milyard dollar dəyərində ABŞ-də, 230 milyard dollar dəyərində Avropa və Orta Şərqdə, 152 milyard dollar dəyərində Asiya Sakit Okean Hövzəsində, 66 milyard dollar dəyərində Kanadada və 61 milyard dollar dəyərində Cənubi Amerikada aktivləri idarə edir. Sektorlar üzrə isə idarə etdiyi investisiyalar belədir: 332 milyard dollar dəyərində kredit, 278 milyard dollar dəyərində daşınmaz əmlak, 222 milyard dollar dəyərində infrastruktur, 150 milyard dollar dəyərində özəl səhm və 137 milyard dollar dəyərində alternativ enerji investisiyaları.

Keçən əsrin sonuncu ilindən üzü bəri "Brookfield" mövcud olan hidroenerji portfelindən istifadə edərək qlobal miqyasda bərpaolunan enerji sahəsində fəaliyyətini genişləndirir. 2017-ci ildən dünyanın ən böyük bərpaolunan alternativ enerji operatorlarından biri kimi tanınır. Bu sahədə "Brookfield" 43 qiqavat işlək enerji və 227 qiqavat həcminə sahib fiber boru xəttinə malikdir. Qeyd edək ki, bu rəqəm Hindistanın hazırkı elektrik gücündən çoxdur, dünyadakı ümumi bərpaolunan enerji gücünün isə təxminən 5 faizinə bərabərdir. Başqa sözlə, "Brookfield" dünyanın ən böyük "yaşıl enerji" oyunçularından biridir.

"Brookfield" həmçinin bərpaolunan enerji sahəsində dünyanın aparıcı texnologiya şirkətləri ilə əməkdaşlıq edir. Belə ki, 2026-2030-cu illərdə "Microsoft"a 10,5 qiqavatlıq yeni bərpaolunan enerji təmin etmək barədə razılaşma imzalayıb. Əlavə olaraq, "Google" ilə təxminən 3 qiqavatlıq hidroenerji gücünün təmin olunmasına dair müqavilə bağlayıb.

Şirkətin ən mühüm üstünlüklərindən biri də nüvə energetikası sahəsindədir. O, "Cameco" ilə birlikdə "Westinghouse Electric Company"nin sahibidir. "Westinghouse" texnologiyası hazırda dünyadakı nüvə reaktorlarının təxminən yarısında istifadə olunur. Bu fakt "Brookfield"i yalnız bərpaolunan enerji deyil, həm də qlobal nüvə xidmətləri və texnologiyaları sahəsində liderlərdən birinə çevirir.

İnfrastruktur layihələri baxımından "Brookfield" 312 min telekom qülləsi, 28 min kilometr fiber optik xətt və 100-dən çox data mərkəzə malikdir. Bu aktivlər qlobal rəqəmsal iqtisadiyyatın təməl sütunlarıdır. Daşınmaz əmlak investisiyaları üzrə isə "Brookfield Properties" 36 milyon kvadratmetrdən çox sahəni idarə edir ki, bu sahə Sinqapurun bütün daşınmaz əmlak bazarının ölçüsünə yaxındır.

ARDNF 2019-cu ildən etibarən "Brookfield Asset Management" şirkətilə strateji tərəfdaşlığa başlayıb və sözügedən şirkət tərəfindən idarə olunan müxtəlif fondlara ümumilikdə 660 milyon dollar sərmayə yatırıb. İnfrastruktur və daşınmaz əmlak fondlarından savayı Birləşmiş Ərəb Əmirliklərində "GEMS Education" kimi özəl məktəblər şəbəkəsinə yatırımlar həyata keçirilib.

"Brookfield" digər iri investisiyalar da həyata keçirib. Məsələn, 2022-ci ilin ortalarında şirkət digər partnyorları ilə birlikdə "Deutsche Telekom"un şəbəkə infrastrukturu təminatçısı "GD Towers"ın 51 faizlik payını satın alıb.

2023-cü ildə isə "Brookfield Infrastructure" şirkəti "Triton"u 13,3 milyard dollar dəyərində razılaşma ilə satın alıb və bununla sabit gəlirli logistika platformasını öz portfelinə əlavə edib. "Brookfield"in idarəsi altında "Triton" inkişafını davam etdirərək 2025-ci ildə donanmasını genişləndirmək üçün "Global Container International LLC" şirkətini də satın alıb. Qeyd edək ki, "Triton International" intermodal (gəmi, qatar, yük avtomobilinə qoşula bilən 20 və ya 40 futluq konteynerlər) konteynerlərin lizinqi üzrə dünyanın ən böyük şirkətlərindən biridir.

Nyu York görüşü inam yaradır ki, ARDNF-nin "Brookfield Asset Management" ilə əməkdaşlığı daha da genişlənəcək. Bu əməkdaşlıq əsasında ölkəmizdə bərpaolunan enerji, logistika, telekom, data mərkəzləri, təhsil, infrastruktur layihələri həyata keçirmək, eləcə də enerji təhlükəsizliyini və rəqəmsal iqtisadiyyatı inkişaf etdirmək mümkündür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Orta dəhliz boyunca...

**Prezident İlham ƏLİYEV:** "Orta dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir"

**Bu** gün Azərbaycan dünyanın ən əhəmiyyətli nəqliyyat qovşağına çevrilib. Hələ ötən əsrin sonlarından qədim İpək yolunun müasir dövrün tələblərinə uyğun yenidən bərpası üçün mühüm addımlar atan ölkəmiz Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun işə salınması üçün də az iş görməyib.



Orta dəhlizin aktiv fazaya keçməsində Prezident İlham Əliyevin müstəsna xidmətləri var. Dövlət başçısı Çin və Orta Asiyadakı dövlətlərlə bu marşrutun daha səmərəli olması üçün məhsuldar danışıqlar apararaq layihənin reallaşmasından ötrü mühüm sənədlərin imzalanmasına nail olub. Xüsusən Çinin "Bir kəmər, bir yol" layihəsinin reallaşması istiqamətində aparılan danışıqlar, bağlanan müqavilələr Orta dəhlizin dünyanın ən təhlükəsiz və səmərəli qlobal ticarət marşrutuna çevrilməsində müstəsna rol oynayıb.

Azərbaycanın dünyanın etibarlı nəqliyyat qovşağına çevrilməsində ölkəmizin yerləşdiyi coğrafi məkan xüsusi rol oynayır. Ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutlarının kəsişdiyi nöqtədə yerləşir. Prezident İlham Əliyevin apardığı logistika siyasəti isə bundan maksimum yararlanmağa imkan verib. Amma məlumdur ki, hər bir layihənin gerçəkləşməsi üçün investisiya qoyuluşu əsas şərtdir, bunsuz heç nəyə nail olmaq mümkün deyil. Prezident İlham Əliyev Nyu Yorkda keçirilən "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına göndərdiyi müraciətində bu məsələyə xüsusi əhəmiyyət vermişdir: "Biz Orta dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırmışıq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması - bütün bunlar Orta dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır. Orta dəhlizin Azərbaycan seqmentində infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin genişləndirilməsi prosesi hazırda da davam etməkdədir.

Son üç ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artmış, yüklərin keçid müddəti əhəmiyyətli dərəcədə azalmışdır. Aparılmış hesablamalara əsasən, 2030-cu ilədək Orta dəhlizin yükdaşıma qabiliyyətinin 2021-ci il ilə müqayisədə 3 dəfə artacağı, yüklərin keçid müddətinin isə 2 dəfə azalacağı gözlənilir".

44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı tarixi Zəfər regionumuzda yeni reallıq yaradıb. Artıq Azərbaycan münaqişədə olan ölkə deyil, buraya investisiya qoyulması heç bir risk yaratmır. Dünyanın münaqişələrdən əziyyət çəkdiyi indiki dövrdə regionumuz ən təhlükəsiz bölgəyə çevrilir. Tarixi Zəfər həmçinin Orta dəhlizin daha təhlükəsiz olmasına və yeni imkanların əldə edilməsinə şərait yaradıb. İlk növbədə dəhlizin yükötürmə qabiliyyətinin genişlənməsi üçün Zəngəzur dəhlizinin (TRIPP) açılması reallaşıb. Cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP - Zəngəzur dəhlizi) sazişi məlum marşrutun fəaliyyətə başlaması istiqamətində olan bütün maneələri aradan qaldırıb. Bu baxımdan dəhlizin açılması ilə bağlı sazişin imzalanması Prezident İlham Əliyevin diplomatik qələbəsi idi.

Prezidentin köməkçisi, PA Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunda çıxışı zamanı bildirib ki, Orta dəhliz üzrə 50 milyon tondan çox yük artımı gözlənilir. Onun sözlərinə görə, bu məqsədlə Azərbaycan əlavə investisiyalar yatırır. "Bakı Limanı ildə 25 milyon ton yükötürmə qabiliyyətinə malikdir və bu imkanların genişləndirilməsi istiqamətində də işlər aparılır".

H.Hacıyev bildirib ki, 2020-ci ildən başlayaraq Bakıdan Zəngilan və Ermənistan sərhədinə qədər uzanan dəmir yolu layihəsinin icrasına start verilib və gələn ilin ortalarında yekunlaşması nəzərdə tutulur: "Ermənistan ərazisində yerləşən 42 kilometrlik Zəngəzur hissəsində də işlər aparılır və burada ABŞ-dən olan tərəfdaşlarımız iştirak edir. Üçüncü seqment isə Naxçıvanı əhatə edir. Bu sahədə də əlavə sərmayələr yatırılır və biz Avropa ölkələri də daxil olmaqla digər beynəlxalq tərəfdaşları əməkdaşlığa dəvət edirik. Əsas məqsəd Cənubi Qafqazı əməkdaşlıq məkanına çevirməkdir".

Forumda çıxış edən ABŞ Dövlət katibi müavininin baş müşaviri Kaleb Orr isə Cənubi Qafqaz və Mərkəzi Asiya da daxil olmaqla daha geniş Xəzər regionunun ABŞ-nin siyasət strategiyası üçün həssas nöqtə olduğunu deyib. Onun sözlərinə görə, bura Birləşmiş Ştatların investisiya qoymaq və qurmaq üçün mühüm strateji maraq dairəsi kimi gördüyü bir sahədir.

Tədbirdə çıxış edən ABŞ-nin digər rəsmisi - Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının nümayəndəsi Konor Koleman Xəzər regionunun xarici siyasət baxımından strateji əhəmiyyətini vurğulayıb. O, ABŞ-nin regionda investisiya maraqları barədə danışıb, enerji və ətraf infrastruktur sahələrində investisiya imkanlarının olduğunu qeyd edib, bu baxımdan təmsil etdiyi qurumun prioritetləri və gələcək əməkdaşlıq imkanları barədə forum iştirakçılarına məlumat verib.

Türkiyə Enerji və Təbii Sərvətlər Nazirliyinin xarici əlaqələr üzrə baş direktoru Öztürk Selvitop çıxış edərək Türkiyə və Azərbaycanın icra etdiyi regional layihələrdən, Xəzər regionunun artan potensialından bəhs edib.

Qazaxıstan Prezidentinin müşaviri Maqzum Mirzəqaliyev Avrasiya regionunda logistika və nəqliyyat şəbəkələrinin inkişafının strateji əhəmiyyət daşıdığını söyləyərək bu sahədə bütün imkanlardan səmərəli istifadə etmək niyyətlərini bölüşüb. O, bu sahədə ABŞ şirkətləri ilə sıx əməkdaşlıq etmək və birgə layihələr həyata keçirmək istədiklərini ABŞ-dəki tərəfdaşlara çatdırıb. Onun sözlərinə görə, Orta dəhliz artıq əsas beynəlxalq ticarət marşrutlarından birinə çevrilir və TRIPP bu əməkdaşlıq üçün yeni imkanlar açır.

Orta dəhlizlə yüklərin daşınmasının dinamikası da bu qlobal ticarət marşrutunun əhəmiyyətini göstərir. Ötən il Orta dəhliz üzərindən daşınan yüklərin həcmi 62 faiz artaraq 4,5 milyon tona çatdı. Bu göstərici marşrutun potensialına dair region aktorlarının hesablamalarını gücləndirir. 2025-ci il üçün həcmin 5,2 milyon tona çatacağı gözlənilir. Proqnozlara görə, bunun təxminən 4,2 milyon tonu marşruta daxil ölkələrin ərazisindən keçəcək. Daşımaların strukturunda isə həm quru yük (təxminən 2,5 milyon ton - 96 min TEU ekvivalenti), həm də enerji məhsulları (təxminən 1,7 milyon ton neft) mühüm pay təşkil edəcək.

Bu artımı davam etdirmək üçün əsas hədəf genişmiqyaslı infrastruktur və idarəetmə işlərini tənzimləməkdir. Məhz bu inkişaf xətti ilə 2027-ci ilə qədər marşrutun ötürücülük qabiliyyəti ildə 10 milyon tona çata bilər. Belə vəziyyət Azərbaycanın tranzit imkanlarını genişləndirmək, logistik xidmətlərdə dəyər zənciri yaratmaq və yerli investisiya ekosistemini canlandırmaq üçün əlverişli olacaq. Lakin dəmir yolu və liman sektorlarında daralmalar, tarif və rabitə tənzimləmələri hələ də ciddi diqqət tələb edən məqamlar olaraq qalır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## "Global Infrastructure Partners" ilə birgə investisiyalar Azərbaycanın regional iqtisadi əlaqələrin genişləndirilməsində rolunu gücləndirir




Son illərdə Azərbaycan yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının ən mühüm iqtisadi və geosiyasi aktorlarından birinə çevrilib. Qlobal və regional çağırışlara çevik reaksiya verən, sabitlik və inkişaf modelini əsas prioritet kimi müəyyən edən ölkə dayanıqlı tərəfdaşlıq və strateji əməkdaşlıq kursu ilə beynəlxalq müstəvidə etibarlı mövqeyini daha da gücləndirir. Dövlətin həyata keçirdiyi məqsədyönlü iqtisadi islahatlar, biznes mühitinin liberallaşdırılması və xarici sərmayələrə göstərilən yüksək dəstək Azərbaycanın regional sərmayə xəritəsində qabaqcıl yerini təmin edib. Texnologiyalar, süni intellekt, alternativ enerji və yüksək dəyər yaradan layihələrə yönəlmiş bu yeni iqtisadi yanaşma ölkənin qlobal miqyasda da daha aktiv aktora çevrilməsinə zəmin yaradır.

Bu strateji kursun əsas hərəkətverici qüvvələrindən biri də Prezident İlham Əliyevin beynəlxalq platformalarda və nüfuzlu tərəfdaşlarla keçirdiyi yüksəksəviyyəli görüşlərdir. İstər ikitərəfli əməkdaşlıq formatlarında, istərsə də çoxşaxəli regional və qlobal təşəbbüslər çərçivəsində aparılan bu dialoqlar Azərbaycanın sabit, açıq və uzunmüddətli tərəfdaş kimi imicini daha da möhkəmləndirir.

Bu görüşlərdən biri də BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak məqsədilə ABŞ-nin Nyu York şəhərində işgüzar səfərdə olan Prezident İlham Əliyevin qlobal infrastruktur investisiya idarəetmə şirkəti - "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə keçirdiyi görüş olub.

AZƏRTAC xəbər verir ki, görüşdə infrastruktur sahəsində beynəlxalq tərəfdaşlıq imkanları və bu sahəyə yönələn birgə investisiyaların regional iqtisadi əlaqələrin genişləndirilməsində rolu müzakirə edilib.

Qlobal kapital axınlarının getdikcə daha çox sabit və dayanıqlı regionlara yönəldiyi bir dövrdə Azərbaycanın geosiyasi mövqeyi, iqtisadi sabitliyi və çevik idarəetmə sistemi GIP kimi aparıcı investisiya qurumları üçün strateji maraq doğurur. Bu səbəbdən şirkət rəhbərinin müraciəti əsasında Nyu Yorkda görüş baş tutub.

"Global Infrastructure Partners" 2006-cı ildə təsis edilmiş qlobal infrastruktur investisiya idarəetmə şirkətidir. Şirkət təxminən 170 milyard dollar məbləğində aktivləri idarə edir. GIP-nin Nyu York, London, Stamford, Sidney, Melburn, Brisben, Mumbay, Dehli, Sinqapur və Honkonq daxil olmaqla dünyanın 10-dan çox şəhərində ofisi mövcuddur. 2024-cü ildə dünyanın ən böyük idarəetmə şirkəti olan "Blackrock" tərəfindən 12,5 milyard dollar məbləği ilə satın alınıb.

Şirkət çox önəmli infrastruktur aktivlərinə investisiya etməklə yanaşı, öz uğurlu dəyər yaratma strategiya və planları ilə onların dayanıqlılığını və uzunmüddətli inkişafını dəstəkləyir. GIP həmçinin dünyanın ən böyük özəl hava limanı investorudur. Təsis edildiyi gündən bəri şirkət London Siti, London Qatvik, Edinburq və Sidney hava limanlarına investisiyalar edib. Şirkətin bu sektorda ən sonuncu investisiyası isə Malayziyada fəaliyyət göstərən hava limanlarının əsas operatoru "Malaysia Airports Holdings Berhad"da (MAHB) olub. GIP MAHB-da 30 faiz özəl səhm payı alıb. MAHB-ın qalan 70 faizlik səhmləri isə Malayziya hökumətinə məxsusdur. Malayziya dövləti tərəfindən GIP-nin bu investisiyaya cəlb edilmə səbəbləri onun təcrübəsindən istifadə edərək bu ölkənin hava limanlarında sərnişin təcrübəsini yaxşılaşdırmaq, hava yollarının əlaqələrini artırmaq, infrastrukturu təkmilləşdirmək və MAHB-ı dünya səviyyəli hava limanı operatoruna çevirmək olub.

GIP Orta Şərqdə BƏƏ tərəfindən dəstəklənən "Global AI Infrastructure Investment Partnership" (GAIIP) - Qlobal Süni İntellekt İnfrastruktur İnvestisiya Tərəfdaşlığı layihəsinin təşəbbüskarıdır. Bu əməkdaşlıq 2024-cü ilin sentyabrında başlamış və süni intellekt sahəsində infrastruktur aktivlərinin inkişafı məqsədilə 30 milyard dollar məbləğində yatırım platformasının yaradılması nəzərdə tutulmuşdur. GIP ilə birlikdə, Əbu-Dabi Əmirliyi tərəfindən yaradılmış investisiya şirkəti MGX və "Microsoft" şirkətləri də bu investisiyaların aktiv idarə edilməsində iştirak edəcəklər. NVIDIA şirkətinin isə layihəyə öz təcrübəsi ilə töhfə verməsi gözlənilir.

GIP enerji keçidini ən böyük investisiya fürsəti olaraq qiymətləndirir və qlobal enerji sisteminin yenidən qurulması üçün illik təxminən 5 trilyon dollara qədər investisiya tələb oluna biləcəyini qeyd edir. Şirkət bərpaolunan enerji, midstrim və nəqliyyat infrastrukturundakı liderliyini, biznes və hökumət liderləri ilə güclü əlaqələrini istifadə edərək, qlobal dekarbonizasiyaya səmərəli töhfə verməyi hədəfləyir. Bu baxımdan Azərbaycanın nəinki zəngin enerji ehtiyatları, həm də onun əhatəli nəqliyyat-tranzit imkanları, rəqəmsal infrastruktur sahəsindəki təşəbbüsləri və "yaşıl keçid"ə verdiyi töhfə ölkəni GIP kimi aparıcı investorlar üçün həm regional lider, həm də etibarlı beynəlxalq tərəfdaş kimi cəlbedici mərkəzə çevirir. GIP 2025-ci ilin məlumatlarına əsasən, 26 ştatda təxminən 11,8 qiqavat gücündə enerji istehsal gücünə malikdir. Bu gücün təxminən 9,1 qiqavatı külək, günəş və enerji saxlama sistemlərindən ibarətdir.

GIP ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) əməkdaşlığı 2024-cü ildən başlayıb və GIP tərəfindən idarə olunan müxtəlif fondlara ümumilikdə təxminən 210 milyon dollar sərmayə yatırılıb. ARDNF İtaliyada aparıcı sürətli qatar operatoru "Italo" yatırımını GIP ilə birgə həyata keçirib. Bu investisiya uzunmüddətli investor olaraq dayanıqlı infrastruktur aktivlərinə sərmayələr həyata keçirməklə ARDNF-nin investisiya portfelinin şaxələndirilməsi baxımından strateji əhəmiyyətə malikdir. GIP hava limanlarının idarə edilməsi, bərpaolunan enerji layihələrinin inkişafı və enerjinin saxlanma sistemləri sahəsindəki təcrübəsi ilə Azərbaycanda faydalı tərəfdaş ola bilər. Həmçinin Qlobal Süni Zəka İnfrastruktur İnvestisiya Tərəfdaşlığı layihəsi çərçivəsində şirkət Azərbaycan və Mərkəzi Asiya ölkələrində data mərkəzlərinin və digər süni zəka infrastrukturunun da yaradılması imkanlarını nəzərdən keçirə bilər.

Qeyd etmək lazımdır ki, bu görüşlər Azərbaycanın beynəlxalq maliyyə və investisiya dairələri ilə əməkdaşlığının genişləndirilməsi baxımından növbəti mühüm addım olmaqla yanaşı, ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirir, strateji tərəfdaşlıq imkanlarını artırır və iqtisadi diplomatiyasının beynəlxalq səviyyədə daha da güclənməsinə, Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinə xidmət edir.

# Azərbaycanın xarici siyasətinin uğurları



# Hər yerdə ehtiramla qarşılanan lider

**Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində dünyanın siyasi zirvəsi də sayılacaq BMT Baş Assambleyasının 80-ci yubiley sessiyası öz işini davam etdirir.**

"Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sözügedən sessiyada iştirak etmək üçün ABŞ-yə işgüzar səfərə gedən Prezident İlham Əliyev BMT-nin bu mötəbər tədbiri çərçivəsində məhz qarşı tərəflərin istəyi ilə xeyli sayda ölkə liderləri, nəhəng şirkətlərin rəhbərləri ilə görüşüb. Bu, Azərbaycana beynəlxalq səviyyədə marağın, onun başçısına şəxsi ehtiram və hörmətin göstəricisidir.

### Donald TRAMP: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız"

Ümumiyyətlə, Prezident İlham Əliyevə göstərilən ali diqqət təkcə BMT-nin 80 illik yubiley tədbirində deyil, digər qlobal miqyaslı toplantılarda da hər zaman müşahidə olunan ənənəvilikdir. Azərbaycan liderinin istənilən beynəlxalq tədbirdə iştirakı daim diqqət mərkəzində olur, etdiyi çıxışlar, keçirdiyi görüşlər böyük maraqla qarşılanır. Bu mənada dövlətimizin başçısının BMT Baş Assambleyasının yubiley sessiyasının nüfuzlu qonaqları sırasında olması qanunauyğunluq idi.

Prezident İlham Əliyevi dünyada ehtiram olunan liderə çevirən isə onun ədalətə söykənən, sülhə dəstək olan müdrik və humanist siyasətidir.

Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni paraflananda ABŞ lideri Donald Tramp da Prezident İlham Əliyevin bu şəxsi məziyyətlərinə vurğu etmişdi: "Siz güclü və ağıllı insansınız".

Məhz Azərbaycan liderinin səylərinin uğurlu nəticəsidir ki, bu gün Cənubi Qafqaz bölgəsində silahlar susub, qan-qada dayanıb. Bölgənin gələcək rifahı, tərəqqisi üçün geniş qapılar açılıb, əməkdaşlıq imkanları yaranıb.

Eləcə də sentyabrın 23-də Nyu Yorkda Prezident Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda ABŞ lideri bir daha dövlətimizin başçısı barədə yüksək fikirlərini, İlham Əliyevlə fəxr etdiyini belə izhar etdi: "Mən Sizinlə, həqiqətən, fəxr edirəm. Siz çox gözəl insansınız".

Təbii ki, dünyanın nəhəng ölkəsinə rəhbərlik edən bir şəxsin dövlətimizin lideri haqqında səsləndirdiyi bu səmimi və yüksək fikirlər həm Donald Trampın İlham Əliyevin şəxsiyyətinə olan ehtiramının təzahürü, həm də Azərbaycan Prezidentinin dünyada sülhün bərqərar olması üçün atdığı əməli addımların yüksək qiyməti kimi dəyərləndirilməlidir.

### Sözü imzasıdır

Ötən 22 ildə sürətli inkişaf yolu keçərək milli maraqlarını qətiyyətlə təmin edən ölkəmizin Prezidenti İlham Əliyevin həyata keçirdiyi müstəqil və uzaqgörən siyasət nəticəsində Azərbaycan dünyanın hər yerindən görünən, böyük maraq və diqqətlə izlənilən nüfuzlu dövlətə çevrilib. Bu gün əksər ölkələrin hərtərəfli əlaqələr qurmaq üçün can atdığı Cənubi Qafqazın aparıcı aktoru olan Azərbaycanın qlobal miqyaslı məsələlərin həllində oynadığı aktiv rol, yeni və ədalətli dünya nizamının qurulması naminə atdığı addımlar beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Strateji geosiyasi coğrafiyada yerləşən ölkəmizdə yaradılan əlverişli şərait respublikamızı beynəlxalq enerji, nəqliyyat qovşağına çevirib. Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən nəhəng dəhlizlərin gerçəkləşdirilməsində müstəsna xidməti olan Azərbaycan həm də dünyada sülhün bərqərar olması üçün əməli işlər reallaşdıran ölkə kimi tanınır. Bir-biri ilə yola getməyən, aralarında ciddi ziddiyyətlər olan, hətta müharibə ərəfəsindəki bir çox ölkənin Azərbaycanın vasitəçiliyi sayəsində münasibətlərini normallaşdırması ilə bağlı faktlar kifayət qədərdir. Həmçinin BMT TŞ-nin qətnamələrini özü yerinə yetirərək suverenliyini təmin etməsi ilə ölkəmizin regiona yeni reallıqlar gətirməsi həqiqəti də dünyada etiraf olunur.

Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış və etimad olunan siyasət dünyanın əksər ölkələrinin respublikamızla ikitərəfli əlaqələrdə maraqlı olmasına rəvac verib. Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanla ABŞ, Çin kimi nəhəng ölkələrin də hərtərəfli əlaqələrdə maraqlı olmaları təsadüfi deyil.

Təbii ki, bütün bunlar bilavasitə sözü imzası qədər kəsərli olan İlham Əliyev şəxsiyyətinə olan etibardan, inamdan irəli gəlir. O da bir başqa reallıqdır ki, bu gün dünya liderləri səmimiyyətlə İlham Əliyevi özlərinin dostu adlandırırlar.

Bu il avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü oldu. Həmin görüşdə Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Sədri bu səmimi müraciəti ilə həm də İlham Əliyevə göstərdiyi dərin hörmət və ehtiramı nümayiş etdirdi.

Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla dövlətimizin rəhbəri İlham Əliyevin qardaşlıq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin ən yüksək zirvəyə qalxmasına birbaşa təkan verir. R.T.Ərdoğan hər zaman Azərbaycan Prezidentinə "əziz qardaşım" deyə xitab edir...

23 noyabr 2022-ci ildə Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri zamanı Prezident Aleksandar Vuçiç Azərbaycan rəhbəri ilə birgə Belqradda keçirilən mətbuat konfransında - "Biz Prezident İlham Əliyevin sözünə inanırıq, onun sözü imzasına bərabərdir" deyərək, bir daha İlham Əliyev xarakterinin qətiyyətinə, dönməzliyinə, etibarlılığına diqqət çəkmişdi.

Bəli, bu gün əksər ölkə liderləri İlham Əliyevin timsalında özlərinin qardaşa, dosta, güvənilən tərəfdaşa malik olduqlarını tez-tez dilə gətirirlər.

Bu cür nümunələrin sayını artırmaq da olar, lakin elə bu misalların özü də Prezident İlham Əliyevin qlobal liderlik portretini gözlər önündə canlandırmağa, onun beynəlxalq arenada tutduğu yüksək mövqeyi, dünyada söz sahibi, nüfuzlu şəxsiyyət olmasını görməyə yetir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Tərəfsiz siyasət, diplomatik məharət

## İlham Əliyevin yüksələn qlobal nüfuzu Azərbaycanı beynəlxalq arenada söz sahibinə çevirib

**İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirib. Yəni hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirib. İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təklifləri verir.**

Ümumiyyətlə, Azərbaycanın müasir tarixində Prezident İlham Əliyev ölkənin siyasi həyatında və beynəlxalq əlaqələrində mühüm rol oynamağa davam edir. Onun rəhbərliyi altında Azərbaycan yalnız regionda deyil, eyni zamanda qlobal miqyasda da mövqeyini gücləndirib, beynəlxalq əlaqələrdə əhəmiyyətli bir oyunçuya çevrilib.

İlham Əliyevin qlobal nüfuzu yalnız onun rəhbərliyi altında həyata keçirilən islahatlar və diplomatik uğurlarla deyil, həm də Azərbaycanın strateji mövqeyindən düzgün istifadə etməsi ilə əlaqədardır. Qlobal lider kimi o, Azərbaycanın inkişafına dair ardıcıl və məqsədyönlü siyasət həyata keçirərək, ölkəni beynəlxalq aləmdə güclü və nüfuzlu bir dövlətə çevirməyi bacarıb. Bu xüsusda Azərbaycan öz liderinin vizyonu ilə dünyada söz sahibinə çevrilməkdədir.

İlham Əliyevin artan qlobal nüfuzu bir tərəfdən Azərbaycanın strateji mövqeyini möhkəmləndirərkən, digər tərəfdən də onun liderlik keyfiyyətlərini və diplomatik bacarıqlarını önə çıxarır.

Qarabağ Zəfəri həm də Azərbaycanın gücünü və müstəqil xarici siyasətini daha geniş qlobal səviyyədə tanıtdı və bu dövr ərzində Azərbaycanın Qərb və Şərq ölkələri ilə diplomatik əlaqələri daha da dərinləşdi.

Azərbaycanın BMT, ATƏT, Qoşulmama Hərəkatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda fəal iştirakı onun qlobal siyasətdəki rolunu artırır. Azərbaycanın bu təşkilatlarda mövqeyi onun həm regional, həm də qlobal məsələlərə təsir göstərən bir ölkə olduğunu göstərir.

Azərbaycanın qlobal mövqeyi onun enerji siyasəti, diplomatik əlaqələri, regional gücü və beynəlxalq təsiri ilə möhkəmlənir. Bu həm Azərbaycanın iqtisadi və siyasi gücünü artırır, həm də onu dünya miqyasında mühüm bir oyunçuya çevirir.

Təkcə son illərdə Azərbaycanın xarici siyasətinin uğurlarına nəzər yetirsək, aydın şəkildə görərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlərlə srtateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.

Bu gün İlham Əliyevin şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Dünyanın ən güclü dövləti sayılan ABŞ-nin Prezidenti Donald Tramp kimi şəxsin Azərbaycan Prezidentinin III Şuşa Qlobal Forumundakı çıxışını "Truth Social" sosial şəbəkəsindəki səhifəsində paylaşması da deyilənlərin təsdiqidir.

Həmçinin avqustun 8-də Vaşinqtonda keçirilən ABŞ, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli görüşündə Donald Trampın İlham Əliyevə xitabən "Siz böyük lidersiniz" ifadəsini işlətməsi bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti dünyanın qlobal liderlərindən biri kimi qəbul olunur. Bu fikirlər həm də Azərbaycana, onun müdrik rəhbərinə verilən ən yüksək dəyər və qiymətdir.

Bütün bunlar böyük dövlətlərin, dünyanın tanınmış şirkətlərinin Azərbaycana olan marağını get-gedə daha da artırır.

BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyasının 80-ci sessiyasında iştirak üçün ABŞ-yə işgüzar səfər edən İlham Əliyevin orada keçirdiyi görüşlər də bunu söyləməyə əsas yaradır. İlham Əliyev dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt, "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker və "Blackstone" şirkətinin prezidenti, baş əməliyyat direktoru Conatan Qrey ilə görüşləri onu deməyə əsas verir ki, dünyanın ən böyük maliyyə qurumları Azərbaycanla işbirliyində maraqlıdırlar.

BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında İlham Əliyev həmçinin Finlandiya Prezidenti Aleksandr Stubb, Keniya Prezidenti Samoei Ruto, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşlər keçirib, eləcə də birinci xanım Mehriban Əliyeva ilə birlikdə Nyu Yorkda "Gələcəyi birlikdə qurmaq" adlı ziyafətdə iştirak edib. Qarşı tərəflərin müraciəti əsasında keçirilən bu görüşlər bir daha onu deməyə əsas verir ki, dünyanın əksər dövləti və tanınmış qlobal şirkətləri Azərbaycanla əməkdaşlığa üstünlük verirlər.

Sentyabrın 23-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-nin Nyu Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər. BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayıb.

BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sessiya sentyabrın 30-dək davam edəcək.

Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən tədbir zamanı ABŞ Prezidenti Donald Trampla Prezident İlham Əliyev arasında səmimi dialoq yaşanıb. Bununla bağlı görüntüləri Birinci vitse-prezident Mehriban Əliyeva özünün "İnstaqram" hesabında paylaşıb. Videoda Donald Tramp çıxışı zamanı Ermənistan-Azərbaycan münaqişəsinin 20 il davam etdiyini, Prezident İlham Əliyev isə xatırlatma edərək, münaqişənin 30 il çəkdiyini və ABŞ Prezidentinin səyləri nəticəsində başa çatdığını bildirib. Bu səmimi dialoq tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb. Bu, əlbəttə ki, Donald Trampla İlham Əliyev arasında olan isti münasibətdən qaynaqlanır. Məhz İlham Əliyevin beynəlxalq toplantıya dəvət edilməsinin əsas səbəbi onun rəhbərliyi altında Azərbaycanın qlobal miqyasda güclü, müstəqil və balanslı bir siyasət yürütməsidir.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin diplomatik bacarıqları, regional və beynəlxalq məsələlərdəki fəallığı, Azərbaycanın enerji və təhlükəsizlik sahəsindəki mövqeyi, həmçinin müxtəlif dünya gücləri ilə balanslı əlaqələri onu beynəlxalq aləmdə yüksək səviyyədə tanınan bir liderə çevirib.

Dünya nizamının özünün çətin dövrünü yaşadığı zamanda, güclü ölkələrin zəiflər üzərində hökmranlığını həyata keçirməyə çalışdığı dövrdə Azərbaycan əlaqələrini davamlı şaxələndirir, enerji siyasətini daha da genişləndirir və bununla da tərəfdaşlarının sayını artırır.

Prezident İlham Əliyevin müstəqil siyasəti, xarici diplomatiyası Azərbaycana etibarlı tərəfdaşlar və bütün bunların fonunda hərtərəfli dividendlər qazandırır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyevə yüksək etimad göstərilir

## Qarşı tərəflərin müraciətləri əsasında keçirilən görüşlər bunun bariz nümunəsidir

Prezident İlham Əliyevin sentyabrın 22-də BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə işgüzar səfəri hazırda ölkə və dünya mətbuatında geniş şərh edilir. Ümumiyyətlə, diqqət yetirsək görərik ki, Prezident İlham Əliyevin qatıldığı hər bir beynəlxalq tədbir Azərbaycana, dövlətimizin başçısına olan böyük hörmət və etimadla diqqətdə olur.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, tədbirlərdən əvvəl qarşı tərəflərin müraciətləri əsasında Prezident İlham Əliyevlə keçirilən görüşlər, günün aktual məsələləri ilə bağlı Azərbaycanın mövqeyinə verilən üstlünlük bunun bariz nümunəsidir. Prezident İlham Əliyevin Nyu Yorka işgüzar səfəri də bu baxımdan diqqət çəkdi.



"Dövlətimizin başçısının dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management"in baş icraçı direktoru Brüs Flətt, "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker və "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşləri bunun bariz nümunəsidir. Belə ki, "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt görüş zamanı 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini xüsusi qeyd etdi. Brüs Flətt Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə görə təbriklərini çatdıraraq, bunun bölgədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkan yaratdığını bildirdi. "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker isə rəhbərlik etdiyi şirkətin qlobal maliyyə və investisiya fəaliyyəti barədə məlumat verərək, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə etdi. O, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirdi", - deyə Vüqar Rəhimzadə əlavə edib.

Prezident İlham Əliyevin ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığı genişləndirməsinə önəm verdiyini qeyd edən deputat bu xüsusda "Neuberger Berman" şirkəti ilə tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyini bildirib: ""Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını, rəhbərlik etdiyi şirkətin Azərbaycanla, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu və ölkəmizdə formalaşmış əlverişli investisiya mühitini yüksək qiymətləndirdiyini bildirdi. Hər üç şirkət dünyanın ən böyük maliyyə qurumlarındandır. Bu, həmin qurumların Azərbaycana olan marağının göstəricisidir. Ümumilikdə, səfər çərçivəsində keçirilən bütün görüşlər qarşı tərəflərin müraciətləri əsasında baş tutur. Bu isə ölkəmizə marağın, onun liderinə olan münasibətin təsdiqidir".

Vüqar Rəhimzadə vurğulayıb ki, ölkələr arasında əlaqələrin inkişafında iqtisadi amili nəzərə alsaq, Azərbaycanın dayanıqlı inkişaf modelinin nümunə olduğunu görərik: "Ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatına töhfələri davamlılığı ilə diqqətdədir. Hər bir layihənin uğurlu sonluqla başa çatması Azərbaycanın bu rolunu daha da artırır. Hazırkı dövrün əsas çağırışının "yaşıl enerji"yə keçid olduğunu da önə çəksək, Azərbaycanın bu sahədə böyük potensiala və təcrübəyə malik olmasının əlaqələrin inkişafında əhəmiyyətli rol oynadığının şahidi olarıq. Prezident İlham Əliyevin Nyu Yorkda keçirdiyi görüşlər Azərbaycanın malik olduğu iqtisadi imkanların təqdimatında mühüm rola malikdir".

Azərbaycanın bu gün investisiya cəlbediciliyi ilə tanındığını qeyd edən V.Rəhimzadə deyib ki, bütün bu uğurlarımız, onların zirvəsində dayanan tarixi Zəfərimiz, suverenliyimizin tam bərpası Azərbaycanın dünya birliyində söz sahibliyini, mövqeyini möhkəmləndirir, Prezident İlham Əliyevə etimadı daha da artırır.

Deputat bildirib ki, BMT ailəsinin tamhüquqlu üzvü olan Azərbaycan qurumun Nizamnaməsinin 51-ci maddəsində təsbit edilmiş özünümüdafiə hüququndan istifadə edərək regionda sülhün və təhlükəsizliyin bərqərar edilməsi naminə BMT-nin qətnaməsini təkbaşına yerinə yetirən yeganə dövlətdir: "Bununla da ölkəmiz BMT ilə qurduğu 33 illik güvənə verdiyi dəyəri açıq formada sübut etdi. Beynəlxalq aləmdə nüfuz sahibi olan Azərbaycan BMT ilə əlaqələrinin inkişafında uğurlu nəticələrə imza atıb. Azərbaycan 2011-ci ildə Birləşmiş Millətlər Təşkilatının 155 üzv dövlətinin səsini qazanaraq təşkilatın Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü seçilib. 2015-ci ildə BMT-nin "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ni qəbul edərək üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirməsi ölkəmizin qazandığı 33 illik etimadın daha bir nümunəsidir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail oldu".

Vüqar Rəhimzadə deyib ki, Azərbaycan beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verir. Ölkəmiz BMT-nin nüfuzunun artırılmasının tərəfdarıdır. Bu mötəbər qurum son illər dünyada gedən təhlükəli meyillərin qarşısının alınmasında həlledici rol oynaya bilər. "Bunun üçün təşkilatın özündə ciddi islahatların aparılması qaçılmazdır. Belə ki, dünyada yeni nizamlama prosesləri gedir, qlobal təlatümlər baş verir və bu təlatümlərin mənfi təsirləri davam edir. BMT-nin məsələlərə operativ reaksiya verməsi, problemlərin həllində yaxından iştirakı böyük əhəmiyyət kəsb edir. Qlobal təhlükəsizliyi təmin etməli olan qurumun struktur və funksional cəhətdən daha da gücləndirilməsi artıq zərurətə çevrilib. Belə olarsa, sülh amili dünya siyasətində aparıcı faktora çevrilər, BMT-yə inam daha da artar, ölkələrin bu əhəmiyyətli beynəlxalq təşkilatla əlaqələri xeyli möhkəmlənər", - deyə deputat bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



# Regional liderlikdən qlobal nüfuza qədər

## Prezident İlham Əliyevin Nyu Yorkda keçirdiyi hər bir görüş beynəlxalq miqyasda Azərbaycana olan böyük maraqdan xəbər verir

Sentyabrın 23-dən etibarən BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində yüksəksəviyyəli debatlar başlayıb.

Qurumun BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında keçirilən debatlarda 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada əsas diqqət münaqişələrə, dayanıqlı inkişaf məqsədlərinə və iqlim böhranına ayrılıb.

### Əlaqələrin inkişafına, yeni əməkdaşlıqlara yol açan platforma

Mötəbər beynəlxalq təşkilatların tədbirləri qlobal, dünyada maraq kəsb edən məsələlərin müzakirəsi ilə yanaşı, dövlətlər arasındakı əlaqələrin müzakirəsi baxımından da mühüm platforma hesab edilir. İkitərəfli münasibətlərin inkişafına xidmət edən razılaşmalar həm də belə tədbirlər çərçivəsində əldə olunur. Yeni əməkdaşlıq əlaqələrinin təməli məhz belə platformalarda qoyulur. Bu baxımdan BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün ABŞ-yə işgüzar səfər edən Prezident İlham Əliyevin Nyu Yorkda keçirdiyi görüşlər Azərbaycanın siyasi-iqtisadi əlaqələrinin genişləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Xüsusilə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin beynəlxalq tədbirlərdə iştirakı hər zaman böyük maraqla izlənilir. Bunun səbəbləri Prezident İlham Əliyevin özünün yüksək şəxsi keyfiyyətləri, dövlət başçısı kimi həyata keçirdiyi siyasətin məzmunu, qlobal gündəlikdəki məsələlərlə bağlı baxışları, Azərbaycanın dünyanı düşündürən problemlərin həllinə verdiyi töhfələrdir. Tarixinin ən qüdrətli mərhələsini yaşayan, regionda və dünyada söz sahibi olan dövlət kimi tanınan Azərbaycan beynəlxalq səviyyədə aktuallıq kəsb edən məsələlərin müzakirəsində yaxından iştirak edir. Respublikamızın enerji siyasəti qlobal enerji təhlükəsizliyinə böyük töhfələr verməkdədir. Azərbaycan hər zaman əməkdaşlığa sadiq olub, çətin vəziyyətə düşən tərəfdaşlarına dayaq durub. Elə buna görə də Prezident İlham Əliyev sayılıb-seçilən, ehtiram və etimad göstərilən siyasi liderlər sırasında yer alır.

ABŞ-yə işgüzar səfər edən Prezident İlham Əliyevin Nyu Yorkda keçirdiyi görüşlər də bunu təsdiq edir.

### Əlverişli biznes mühiti Azərbaycanı xarici sərmayə üçün cəlbedici edir

Prezident İlham Əliyevin ABŞ-də keçirdiyi görüşləri siyasi və iqtisadi əməkdaşlıqlar baxımından iki qrupa ayırmaq olar. Öncə ondan başlayaq ki, Azərbaycan hər zaman xarici biznes dairələrinə açıq olub. Respublikamızda əlverişli biznes mühiti bərqərar edilib və təsadüfi deyil ki, yatırılan sərmayələrin bir hissəsi məhz xarici şirkətlərin payına düşür. Azərbaycan iqtisadiyyatının bütün sferalarında xarici sərmayəyə rast gəlmək mümkündür.

Bu baxımdan Azərbaycan Prezidentinin ABŞ səfərinin bir daha təsdiq etdiyi həqiqətlərdən biri bundan ibarətdir ki, bu ölkənin biznes dairələri Azərbaycanda fəaliyyət göstərməkdə və ya ölkəmizdəki işlərini daha da genişləndirməkdə maraqlıdırlar. ABŞ-də olduğu müddətdə dövlətimizin başçısı dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin, beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edən "Neuberger Berman" şirkətinin, alternativ investisiyaları idarə edən "Blackstone" şirkətinin, kredit, daşınmaz əmlak, özəl səhm və infrastruktur sahələrində fəaliyyət göstərən "Ares Management" şirkətinin, 170-dən çox ölkədə 1000-dən artıq müştərək fond və genişçeşidli investisiya məhsullarını idarə edən "Franklin Templeton" şirkətinin, qlobal infrastruktur investisiya idarəetmə şirkəti olan "Global Infrastructure Partners"in rəhbərləri ilə görüşüb. Xüsusilə qeyd edilməlidir ki, bu görüşlər qarşı tərəflərin müraciəti əsasında baş tutub və bu da onların Azərbaycanla əməkdaşlığa olan maraqlarından irəli gəlir.

Azərbaycandakı sabitlik, şəffaf və əlverişli biznes mühiti xarici şirkətləri ölkəmizlə yeni tərəfdaşlıq əlaqələrinə sövq edir. Onların rəhbərlərinin müraciət edərək ABŞ-də Prezident İlham Əliyevlə görüşmələri Azərbaycanın enerji və investisiya potensialına olan marağın göstəricisidir.

### Hər bir görüş Azərbaycanın güclü mövqelərinin ifadəsinə çevrildi

Prezident İlham Əliyevin Nyu York səfəri Azərbaycanın xarici siyasi əlaqələri baxımından çoxsaylı görüşlərin keçirilməsi ilə əlamətdardır. Dövlətimizin başçısı BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis, Avropa Şurasının Baş katibi Alen Berse, Keniya Prezidenti Uilyam Samoei Ruto, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb, ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi, Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza və Bolqarıstanın Baş naziri Rosen Jelyazkov ilə görüşüb.

Əlbəttə ki, bu görüşlərin hər biri Azərbaycanın xarici əlaqələri baxımından böyük əhəmiyyət kəsb edir. Bütün görüşlərdə Azərbaycanla Ermənistan arasında avqust ayında Vaşinqtonda əldə olunan razılaşmaların yüksək qiymətləndirilməsi isə həm də sülh gündəliyinin təşəbbüskarı olan Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi fəaliyyətinin təqdir olunmasıdır.

Bu gün Azərbaycan dünyada yalnız Qafqazın lideri və aparıcı dövləti kimi tanınmır. Azərbaycan həm də regional və qlobal proseslərin əsas iştirakçılarından, Avropanın enerji təhlükəsizliyinin mühüm təminatçılarından biri kimi tanınır. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi olmaqla yanaşı, Azərbaycanın regionda və dünyada nüfuzunu daha da yüksəltdi, mövqelərini möhkəmləndirdi. İndi Azərbaycan qlobal miqyasda müharibədə qalib gəlmiş dövlət kimi tanınır.

Dünya həm də Azərbaycanı qlobal sülhə və təhlükəsizliyə, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən ölkə kimi tanıyır. Və bütün bu həqiqətlər zəncirvari şəkildə birləşərək tarixin ən güclü Azərbaycanını dünyaya bəyan edir.

Beynəlxalq səviyyədə Azərbaycanla əməkdaşlığa olan yüksək marağın əsas səbəbi də bunlardır. Bu baxımdan Prezident İlham Əliyevin ABŞ səfəri həm də Azərbaycanın xarici əlaqələrinin inkişafına və genişlənməsinə xidmət edən görüşlərlə əlamətdar oldu. Dövlətimizin başçısının keçirdiyi hər bir görüş Azərbaycanın regionda və dünyada malik olduğu güclü mövqelərinin ifadəsi, rəsmi Bakının qlobal nüfuzunun təsdiqi baxımından böyük əhəmiyyət kəsb etdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Şarl MİŞEL:* "Zəngəzur dəhlizinin açılması Azərbaycanla Ermənistan arasında sülh sazişinin həyata keçirilməsinə təkan verəcək"

"Bir neçə il bundan əvvəl Azərbaycan və Ermənistan üçün bir-birini daha yaxşı başa düşmək və məkan tapmaq son dərəcə çətin idi. Mən Brüssel formatı ilə əlimdən gələni etməyə çalışmışam".




Bu sözləri AZƏRTAC-a açıqlamasında Avropa Şurasının keçmiş prezidenti Şarl Mişel deyib. O, bildirib ki, Brüsseldə Azərbaycanla Ermənistanın danışıqlar aparması üçün bır sıra fürsətlər baş tutub: "Bəzən çox çətin idi, çünki fikir ayrılığı var idi. Amma mən hiss etdim ki, irəliləyiş əldə etmək və sülh sazişinə doğru müəyyən addımlar atmaq üçün iradə var. Mən çox şadam ki, bu addımlar atılır. Bilirəm ki, hələ bəzi çətinliklər var, amma ərazi bütövlüyünü möhkəmləndirmək, qarşılıqlı suverenliyin tanınmasını təmin etmək üçün çalışmaq vacibdir. Qarşılıqlı əlaqə çox vacib məsələdir, çünki uzunmüddətli perspektivdə iqtisadi layihələr nə qədər çox olarsa, investisiyalar da bir o qədər artacaq. Mən çox şadam ki, bizim Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlara kömək etmək üçün bəzi fürsətlərimiz olub. Ümid edirəm ki, gələcəkdə bu irəliləyişləri möhkəmləndirmək mümkün olacaq", - deyə Şarl Mişel əlavə edib.

O, Zəngəzur dəhlizinin açılmasının iki ölkə arasında sabitliyin möhkəmlənməsinə və sülh sazişinin həyata keçirilməsinə təkan verəcəyini deyib. Şarl Mişelin sözlərinə görə, dəhliz Avropa İttifaqı ilə Qafqaz və Mərkəzi Asiya arasında bağlantı yaradacaq.

# Vyanada Anım günü ərəfəsində "Cənubi Qafqazda sülh və sabitlik" mövzusunda "dəyirmi masa" təşkil olunub



Vyanada Azərbaycanın Avstriyadakı səfirliyinin təşkilatçılığı ilə "Ermənistan və Azərbaycan arasında əldə edilmiş tarixi Vaşinqton razılaşmalarından sonra Cənubi Qafqazda sülh və sabitlik" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, 27 Sentyabr - Anım günü ərəfəsində təşkil olunan və siyasi analitik Harvi Dzodinin moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli, avstriyalı hüquqşünas Qabriel Lanski və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov spiker qismində çıxış ediblər.

Panel müzakirələrində Ermənistan-Azərbaycan münaqişəsinin tarixçəsi, normallaşma prosesi və 8 avqust 2025-ci il tarixində Vaşinqtonda əldə olunmuş son razılaşmalar, münaqişənin həllindən sonra regionun iqtisadi-ticarət və nəqliyyat potensialının daha da inkişaf etdirilməsi üçün yaranmış yeni imkanlar, xüsusilə də Zəngəzur dəhlizinin işə salınması müzakirə olunub.

Tədbir zamanı iki ölkə arasında davamlı sülhün bərqərar olması istiqamətində növbəti addımlar barədə ətraflı məlumat verilib. Bu xüsusda Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanmasından sonra Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmalı olduğu vurğulanıb. Eyni zamanda kommunikasiyaların açılmasının təkcə Azərbaycanın əsas hissəsinin Naxçıvanla maneəsiz bağlantısını yaratmaqla yanaşı, həmçinin Asiya ilə Avropanı birləşdirən Orta dəhlizin bundan sonrakı inkişafına töhfə verəcəyi qeyd edilib. Vurğulanıb ki, bu, regionda hamının mənfəət götürə biləcəyi bir sülh layihəsidir.

Bundan əlavə, keçmiş münaqişənin beynəlxalq hüquqi aspektləri, BMT və ATƏT kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərarlar, o cümlədən azərbaycanlı məcburi köçkünlərin geri qayıdış hüququnun təmin edilməsi üçün Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərar və onların münaqişənin ədalətli həllinə töhfəsi müzakirə edilib.

Müzakirələr zamanı həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, ölkənin region ölkələri ilə münasibətləri barədə danışılıb.

# *Avstriyalı ekspert:* "Bakı və Ələt Mərkəzi Asiya ilə Avropa arasında nəqliyyat axınlarının təbii qapıları rolunu oynayır"




Orta dəhliz Xəzər dənizi vasitəsilə Asiya ilə Avropa arasında nəqliyyat axınlarını birləşdirən qlobal logistika sisteminin getdikcə daha vacib elementinə çevrilir. Artan geosiyasi qeyri-sabitlik və ənənəvi təchizat zəncirlərinin pozulması fonunda bu dəhliz beynəlxalq yükdaşımaları üçün alternativ olur, davamlı və çevik marşrut kimi strateji əhəmiyyət qazanır.

Prezident İlham Əliyevin "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş VI Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində qeyd olunduğu kimi, Azərbaycan özünəməxsus coğrafi mövqeyinə və sabit siyasi mühitinə görə Orta dəhlizin inkişafında əsas oyunçudur. Ölkənin strateji vizyonu və infrastruktur investisiyaları bu marşrutu Avropa və Asiya şirkətləri üçün getdikcə cəlbedici edir.

Nəqliyyat və logistika üzrə ekspert, Avstriyada fəaliyyət göstərən "ÖBB Rail Cargo Group"un Avrasiya-Çin Əlaqələri Departamentinin rəhbəri Enike Qörfi AZƏRTAC-a müsahibəsində logistika marşrutlarının inkişaf etdirilməsinə yanaşmaların dəyişdirilməsi, Orta dəhlizin perspektivləri, həmçinin Avropa operatorları və regional nəqliyyat tərəfdaşları arasında qarşılıqlı əlaqələri, cari qlobal tendensiyaları əks etdirən nəqliyyat operatorları ilə bağlı öz fikirlərini bölüşür.

*- Siz Avrasiya-Çin Əlaqələri Departamentinin rəhbərisiniz. Son bir neçə il ərzində, xüsusən də qlobal təchizat zəncirindəki fasilələrdən sonra logistika marşrutlarının qurulması üçün prioritetlər və yanaşmalar necə dəyişib?*

- Son bir neçə il ərzində qlobal tədarük zəncirlərindəki COVID-19 pandemiyasından tutmuş geosiyasi gərginliyə qədər səbəblərdən baş verən fasilələr logistika prioritetlərini əsaslı şəkildə dəyişib. "ÖBB Rail Cargo Group" üçün davamlılıq və marşrutun şaxələndirilməsi Avrasiya strategiyamızın mərkəzi sütunlarına çevrilib. Bu gün biz təkcə ənənəvi Şimal dəhlizinə diqqət yetirmirik, Avropa sənayesi üçün davamlılıq və çeviklik təmin edən Orta dəhliz kimi alternativ əlaqələri getdikcə daha çox inkişaf etdirir və gücləndiririk.

*- Artan geosiyasi qeyri-sabitlik və Çin ilə Avropa arasında alternativ marşrutlara marağın artması fonunda Orta dəhlizin potensialını necə qiymətləndirirsiniz?*

- Orta dəhliz alternativ variantdan Asiya ilə Avropa arasında strateji əhəmiyyətli əsas marşruta çevrilib. Son zamanlar baş verən geosiyasi qeyri-sabitliyi nəzərə alaraq, həm yükgöndərənlər, həm də hökumətlər tərəfindən bu dəhlizə maraq xeyli artıb. Xüsusilə uyğunlaşdırma, tranzit müddətləri və xərclər sahələrində davamlı problemlərə baxmayaraq, bu dəhliz Avropa ilə Asiyanı birləşdirən davamlı, rəqabətədavamlı və etibarlı körpü olmaq potensialına malikdir. Bu, "ÖBB Rail Cargo" üçün strateji əhəmiyyət kəsb edən bir marşrutdur.

*- Sizcə, Azərbaycan hazırda Orta dəhlizin logistika ekosistemində tranzit ölkə, mərkəz və ya tamhüquqlu logistika habı kimi necə fəaliyyət göstərir? Azərbaycanın infrastrukturunun, xüsusən Ələt limanı və dəmir yolu əlaqələrinin Orta dəhliz boyu yükdaşımaların həcminin miqyasını artırmağa hazır olması ilə bağlı qənaətiniz necədir?*

- Azərbaycan tranzit ölkə deyil. Ələt limanına qoyulan investisiyalar və milli dəmir yolu sisteminin modernləşdirilməsi sayəsində Azərbaycan özünü Orta dəhlizin logistika ekosistemində mühüm qovşaq kimi yerləşdirir. Onun "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəyə tamhüquqlu logistika mərkəzinə çevrilmək potensialı verir. Fikrimizcə, infrastruktur, xüsusən Ələtdə yaradılan şərait potensial və rəqəmsallaşmaya daha da koordinasiya edilmiş investisiyalar şərti ilə artan həcmləri idarə etmək üçün yaxşı hazırlanıb.

*- ÖBB necə hesab edir, Avropanın dəmir yolu operatorları ilə Azərbaycan və Qazaxıstan da daxil olmaqla Orta dəhliz tərəfdaşları arasında əməkdaşlıq hansı səviyyədə təşkil olunur? Avropa operatorları, o cümlədən ÖBB üçün Bakı və ya Ələt kimi mərkəzlərdə iştirakları gücləndirmək nə dərəcədə vacibdir? Onların Qafqaz regionunda mövcudluğunu genişləndirmək planları varmı?*

- "ÖBB Rail Cargo Group" hesab edir ki, Avropa dəmir yolu operatorları həm ikitərəfli sazişlər, həm də Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası çərçivəsində Orta dəhliz tərəfdaşları ilə sıx əməkdaşlıq edirlər. Bizim üçün Bakı və Ələt kimi qovşaqlar strateji əhəmiyyətlidir: onlar Mərkəzi Asiya ilə Avropa arasında nəqliyyat axını üçün təbii qapılardır. Bu nöqtələrdə mövcudluğumuzu gücləndirmək - hazırda strateji tərəfdaşlıqlar yolu ilə və uzunmüddətli perspektivdə potensial olaraq nümayəndəliklər və ya birgə müəssisələr vasitəsilə bu dəhlizi Avropa şəbəkəmizə inteqrasiya etmək planı strategiyamızın bir hissəsidir.

*- "ÖBB Holding AG" Azərbaycanla müntəzəm uçuşlar və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) boyunca pilot layihələr həyata keçirməyi düşünürmü? Onun Azərbaycanda logistika qovşaqlarının və ya marşrut boyu digər əsas nöqtələrin inkişafına investisiya qoymaq və ya texniki dəstək vermək planları varmı? ÖBB-nin Cənubi Qafqaz və ya Xəzər regionu üzərindən tranzitlə bağlı cari və ya planlaşdırılan layihələri haqqında məlumat verə bilərsiniz?*

- "ÖBB Rail Cargo" Azərbaycan, Türkiyə və Qazaxıstandan olan tərəfdaşlarla birgə Orta dəhliz boyunca blok qatar xidmətlərini fəal şəkildə həyata keçirir. Məqsəd müntəzəmliyi, tranzit müddətini və etibarlılığı sınamaq, daha sonra layihəni müntəzəm xidmətlərlə genişləndirməkdir. ÖBB Azərbaycanın infrastrukturunun birbaşa sərmayəçisi olmasa da, biz texniki biliklərin ötürülməsi, əməliyyat əməkdaşlığı və birgə xidmət dizaynı vasitəsilə logistika qovşaqlarının dəstəklənməsi baxımından böyük potensial görürük.

*- Sizcə, Orta dəhlizin inkişafını sürətləndirmək üçün hansı tərəfdaşlıq formaları daha effektivdir - dövlət-özəl tərəfdaşlıqlar, konsorsiumlar və ya hökumətlərarası sazişlər?*

- Orta dəhlizin inkişafı yalnız çoxpilləli tərəfdaşlıq modeli vasitəsilə mümkündür. İnvestisiyaların səfərbər edilməsi üçün dövlət-özəl tərəfdaşlığı vacibdir; tənzimləyici standartların və sərhəd prosedurlarının uyğunlaşdırılması üzrə hökumətlərarası sazişlər zəruridir; konsorsium modelləri operatorlara resursları birləşdirməyə və səmərəliliyi təmin etməyə kömək edir. Fikrimizcə, ən effektiv yanaşma bütün bu güclü tədbirlərin və dəhlizlər tərəfindən dəstəklənən strategiyaların və Avropa ölkələrinin dəstəklədiyi siyasi institutların birləşməsidir. Məsələn, Avropa İttifaqının "Global Gateway" təşəbbüsündə olduğu kimi.

*- Davamlılıq və karbonsuzlaşdırma məsələləri Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi logistika dəhlizlərin strateji planlaşdırılmasına necə təsir edir? Azərbaycandan keçən marşrut "yaşıl dəhliz" kimi mövqeyə sahib ola bilərmi?*

- Davamlılıq və karbonsuzlaşdırma "ÖBB Rail Cargo"nun korporativ strategiyasının təməl daşlarıdır. Dəmir yolu nəqliyyatı artıq enerji istehlakında altı dəfə azalma və avtomobil nəqliyyatı ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağı emissiya təklif edir. Elektrikləşdirmə, limanlarda və terminallarda bərpaolunan enerjidən istifadə və səmərəliliyin artırılması üçün rəqəmsal sistemlərin tətbiqi kimi əlavə tədbirlər həyata keçirilərsə, Orta dəhliz, xüsusən də Azərbaycandan keçən marşrut "yaşıl dəhliz" mövqeyinə sahib ola bilər. Bu, təkcə dəhlizin rəqabət qabiliyyətini artırmayacaq, həm də onu Avropa Yaşıl Sazişinə və qlobal davamlı inkişaf məqsədlərinə uyğunlaşdıracaq.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyəti Ankarada görüşlər keçirib

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Ankarada görüşləri davam edir.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə Azərbaycanla Türkiyə arasında sosial xidmətlər sahəsində əməkdaşlıq və təcrübə mübadiləsi məsələləri müzakirə edilib. İki ölkənin eyni təyinatlı qurumları arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri və təcrübə mübadiləsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyətinin üzvləri Ankarada fəaliyyət göstərən bir sıra sosial dəstək və reabilitasiya mərkəzlərini ziyarət edib, əhalinin dəstəyə ehtiyacı olan kateqoriyaları üçün yaradılan şəraitlə tanış olublar.

Yanvarın 28-nə qədər davam edəcək səfər çərçivəsində Türkiyənin Şəhid Ailələri və Qazilər Vəqfi və digər qurumların rəhbərləri ilə görüşlər də nəzərdə tutulub.

Səfərin məqsədi müvafiq fəaliyyət sahələri, həmçinin sosial xidmətlər, tibbi-sosial ekspertiza və reabilitasiya sahələri üzrə qarşılıqlı təcrübə mübadilələrinin və gələcək əməkdaşlıq məsələlərinə dair müzakirələrin aparılmasıdır.

Nümayəndə heyətinin tərkibinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, agentliyin Sosial müəssisələrlə iş üzrə departamentinin müdiri Sara Ağayeva, beynəlxalq əlaqələr şöbəsinin müdiri Dəyanət Cəmilli və nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Bakı Reabilitasiya Mərkəzinin direktoru Şahin Qurbanov daxildir.

# BMT-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə beynəlxalq konfrans təşkil olunub

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində təşkilatın Nyu York şəhərində yerləşən mənzil-qərargahında "Bujival razılaşmasından sonra Dənizaşırı ərazilər: rekolonizasiya, yoxsa dekolonizasiya?" adlı beynəlxalq konfrans keçirilir.



AZƏRTAC-ın məlumatına görə, konfransda Fransanın Dənizaşırı əraziləri - Kanaki (Yeni Kaledoniya), Qvadelup, Martinik, Reyunyon, Mahoi Nui (Fransız Polineziyası), Fransız Qvianası, eləcə də Niderlandın Boneyra, Aruba, Sen Martin kimi müstəmləkə ərazilərində fəaliyyət göstərən müstəqillik hərəkatlarının liderləri, dekolonizasiya üzrə beynəlxalq ekspertlər, həmçinin əsası Bakıda qoyulmuş Beynəlxalq Dekolonizasiya Cəbhəsinin nümayəndələri iştirak edirlər.

Konfransda Fransa tərəfindən "sabitlik və birgə gələcək" kimi təqdim edilən Bujival razılaşmasının əsl mahiyyəti müzakirə ediləcək, bu sazişin şərtləri Yeni Kaledoniyanı müstəqilliyə çatdırmalı olduğu Matinyon və Numea sazişləri ilə müqayisə ediləcək.

Tədbirdə Kanak xalqının nümayəndələri Bujival sazişini niyə rədd etdiklərini geniş ictimaiyyətə açıqlayacaqlar. Konfransda həmçinin Bujivaldan sonrakı dövrdə Kanaki və digər Dənizaşırı ərazilərin gələcəyi, Fransa tərəfindən BMT qarşısında götürülmüş, lakin uzun illərdir icra edilməyən öhdəliklərin yerinə yetirilməməsinin beynəlxalq təşkilatların gündəliyində saxlanılması məsələləri, həqiqi dekolonizasiya prosesinə keçidin yolları və bu xüsusda birgə addımların atılması diqqət mərkəzində olacaq.

Konfransın sonunda birgə bəyanat qəbul edilib.

Tədbirdən sonra koloniyaların təmsilçiləri tərəfindən BMT ofisinin qarşısında dinc etiraz aksiyası keçiriləcək.

# "Gender bərabərliyi və genderəsaslı ayrı-seçkilik" mövzusunda təlim



Sentyabrın 25-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Gender bərabərliyi və genderəsaslı ayrı-seçkilik" mövzusunda təlim keçirilib.

AZƏRTAC xəbər verir ki, təlimin əsas məqsədi gender bərabərliyi mövzusunda media əməkdaşlarının bilik və bacarıqlarının artırılması, eləcə də cəmiyyətin bu sahədə maarifləndirilməsi işində medianın rolunun gücləndirilməsidir. Təlimdə açılış nitqi ilə çıxış edən Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova ölkəmizdə gender bərabərliyinin təmin olunması istiqamətində görülən işlərdən, milli və beynəlxalq hüquqi çərçivələrdən bəhs edərək, Dövlət Komitəsi tərəfindən bu sahədə həyata keçirilən tədbir və layihələr barədə ətraflı məlumat verib.

Medianın bu sahədə daşıdığı mühüm ictimai məsuliyyətə diqqət yönəldən S.Qəhrəmanova vurğulayıb ki, media nümayəndələrinin gender məsələlərinə yanaşma tərzi cəmiyyətdə formalaşan təsəvvürlərə ciddi təsir göstərir. Bu baxımdan, jurnalistlərin gender bərabərliyi və ayrı-seçkilik kimi mövzularda daha məlumatlı olması və həssas yanaşma nümayiş etdirməsi mühüm əhəmiyyət daşıyır.

Sonra təlimçi, gender eksperti Məryəm Məcidova iştirakçılara gender bərabərliyinin əsas anlayışları, genderəsaslı zorakılıq, Azərbaycanda genderəsaslı cins seçiminin səbəbləri və fəsadları mövzularında geniş təqdimatlarla çıxış edib. O, həmçinin gender bərabərliyinin təşviqində medianın rolu və genderə həssas jurnalistikanın üstünlükləri barədə danışıb.

İnteraktiv müzakirələrlə davam edən təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Dekolonizasiyaya həsr olunmuş beynəlxalq konfrans iştirakçıları Birgə Bəyanat səsləndiriblər

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində təşkilatın Nyu York şəhərində yerləşən mənzil-qərargahında "Bujival razılaşmasından sonra Dənizaşırı ərazilər: rekolonizasiya, yoxsa dekolonizasiya?" adlı beynəlxalq konfrans iştirakçıları yekunda Birgə Bəyanat səsləndiriblər.



AZƏRTAC-ın məlumatına görə, bəyanatda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Baş Assambleyanın 1960-cı il 14 dekabr tarixli 1514 (XV) saylı "Müstəmləkə ölkələrə və xalqlara müstəqilliyin verilməsi haqqında" qətnaməsinin bütün xalqların öz müqəddəratını təyinetmə hüququnu təsbit etdiyi və müstəmləkəçiliyin bütün təzahürlərinin dərhal və qeyd-şərtsiz aradan qaldırılmasının vacibliyi vurğulanıb.

Həmçinin bir ərazinin tam özünüidarəyə nail olub-olmadığını müəyyən edən prinsipləri əks etdirən 1541 (XV) saylı qətnamə və dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıqla bağlı beynəlxalq hüquq prinsiplərini təsbit edən 2625 (XXV) saylı qətnamə bir daha xatırladılıb.

"Kanaki (Yeni Kaledoniya) 1986-cı ildən BMT tərəfindən özünü idarə etməyən ərazi kimi tanınıb və bununla da Fransa dekolonizasiya prosesini tamamlamaq üçün beynəlxalq öhdəlik götürüb. 1853-cü ildən etibarən xarici işğala qarşı davamlı müqavimət göstərmiş, fransız müstəmləkəçiliyi dövründə torpaqlarından məhrum edilmiş, ağır repressiyalara məruz qalmış Kanak xalqının mübarizəsinin qurbanlarını yad edirik.

1984-cü ildə müstəqillik qazanmaq üçün yaradılmış Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) həlledici mərhələdə olduğunu və BMT-nin dəfələrlə bu mübarizənin legitimliyini təsdiqlədiyini vurğulayırıq", - deyə bəyanatda bildirilir.

2025-ci ilin iyulunda imzalanmış Bujival razılaşması "sabitlik çərçivəsi" kimi təqdim edilsə də, əslində, öz müqəddəratını təyinetmə hüququnun açıq şəkildə pozulması, Fransanın hərbi, iqtisadi və strateji hökmranlığını davam etdirməyə hesablanmış siyasi rekolonizasiya aləti olduğu bildirilib.

"Biz, "Bujival razılaşmasından sonra Dənizaşırı ərazilər: rekolonizasiya, yoxsa dekolonizasiya?" adlı beynəlxalq konfransın iştirakçıları olaraq, Bujival razılaşmasını qətiyyətlə qeyri-legitim hesab edirik. Onu BMT Nizamnaməsi və beynəlxalq hüququn prinsiplərinə zidd hesab edərək bəyan edirik ki, razılaşma əvvəlki öhdəlikləri pozur, asılılığı möhkəmləndirir və Kanak xalqının ayrılmaz hüququ olan müstəqilliyini boğmağa yönəlmiş məqsədyönlü şəkildə atılan addımdır. Biz Kanak xalqının öz siyasi statusunu azad şəkildə müəyyən etmək və xarici müdaxilə olmadan iqtisadi, sosial və mədəni inkişafını realizə etmək hüququnu bir daha təsdiq edirik.

Biz BMT-ni, Dekolonizasiya üzrə Xüsusi Komitəsini və bütün üzv dövlətləri Fransanın Kanakinin dekolonizasiya prosesinə mane olmasını qınamağa, Kanakinin tam və qeyd-şərtsiz müstəqilliyini təmin etmək üçün səyləri gücləndirməyə çağırırıq", - deyə qeyd olunub.

# Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın etirafları məhkəmədə sübut kimi tədqiq edilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 25-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

İclasın əvvəlində təqsirləndirilən şəxs Levon Mnatsakanyan məhkəməyə müraciət edərək bir neçə iclasının protokolu ilə tanış olmaq istədiyini və müvafiq şərait yaradılmasını xahiş edib.

Məhkəməyə sədrlik edən L.Mnatsakanyana iclas protokolları ilə tanış olması üçün tərcüməçi vasitəsilə şərait yaradılacağını bildirib.

Məhkəmə iclası Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mətbuata müsahibəsinin cinayət işi üzrə sübut kimi tədqiq olunması ilə davam etdirilib.

Ermənistandan Azərbaycan ərazilərini işğal etməsi üçün göndərilmiş M.Qriqoryan müsahibədə Ermənistandan aldığı təlimatlar əsasında Azərbaycanın suveren ərazilərində, o cümlədən Ağkənddə törətdiyi cinayətlər, o cümlədən təxribatlar barədə danışıb.

"Məktəblərdə aranı qızışdırırdıq ki, dalaşsınlar, bir-birilərini döysünlər. Hadrutda, Xankəndidə bizimlə əməkdaşlıq edən rəhbərlik var idi, Ermənistandan isə 24 saat ərzində birbaşa bizimlə əlaqədə idilər", - deyə M.Qriqoryan bildirib.

O, bir qrup ali məktəb tələbəsi olan gənc kişinin və qadının İrəvandan Azərbaycan ərazilərinə gəldiyini, məktəb müəllimi kimi fəaliyyətə başladıqlarını deyib və əlavə edib: "Onlar bizimlə əməkdaşlıq edirdilər. Gündüzlər dərs keçirdilər, gecələr isə bizimlə birlikdə postlarda növbə aparırdılar. Yəni onlar gecələr hazır "əsgər" idilər.

Sonra biz gənc müəllimlərin vasitəsilə 14-15 yaşlı yeniyetmələrdən əsgər kimi istifadə etməyə başladıq. Çünki o yaşda uşaqlarla işləmək daha asan idi, - qeyd etdiyim həmin 14-15 yaşındakı yeniyetmələrin 90 faizi bu günə qədər orduda xidmət edirlər, hətta generallardır və digər yüksəkrütbəli zabitlərdir, - başladıq onları öz yanımıza, yəni bazaya çəkməyə. Artıq onlara ciddi silahlar verirdik, bildiklərimizi öyrədirdik və məşqlər həyata keçirirdik".

Müsahibədə M.Qriqoryan Ermənistanın keçmiş prezidentləri Robert Köçəryanın və Serj Sarkisyanın Azərbaycan ərazilərinin vaxtilə işğal edilməsində iştirakından da danışıb.

O, Ermənistandan yüksəkrütbəli hərbçilərin, general və polkovniklərin Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində hərbi bölmələr yaratmaq üçün göndərildiyini də söyləyib. Generallardan birinin isə adını çəkərək, onun Gümrüdən gəlmiş Artuşa olduğunu deyib.

"Ermənistandan bizə avtomat, ümumiyyətlə vertolyotla nəyi gətirmək mümkündürsə, onu gətirə bilirdilər", - deyə o əlavə edib.

M.Qriqoryan azərbaycanlıların qətlə yetirildiyini, kəndlərin talan edildiyini də etiraf edib və deyib: "Başladıq türklərin (azərbaycanlıların - red.) kəndlərini tutmağa. Girirdik, kəndləri dağıdırdıq, məhv edirdik.

M.Qriqoryan Ermənistan silahlı qüvvələrinə məxsus briqadanın komandiri olmasından da bəhs edib. Bildirib ki, bununla əlaqədar Ermənistana çağırılıb, müdafiə naziri Vazgen Manukyanın əmri ilə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərinə göndərilib. Bundan sonra Azərbaycanın Füzuli rayonunun 47 kəndini işğal ediblər.

Daha sonra məhkəmədə cinayət işi üzrə bir sıra sənədlər elan olunub. O cümlədən 1992-ci il iyunun 8-də Qazax rayonunun Aşağı Əskipara və digər kəndlərinin atəşə tutulması, 1992-ci il fevralın 29-da hərbi hissənin şəhərciyinə basqın edilməsi, hərbi hissədən silah-sursatın ələ keçirilməsi, 1993-cü il dekabrın 16-da Beyləqan şəhərinin artilleriya atəşinə tutulması, Xankəndi şəhərinin və Kərkicahan qəsəbəsinin işğal edilməsi faktları üzrə sənədlər elan edilib.

Habelə Şuşa rayonunun, Xankəndi şəhərinin, Xocavənd, Xocalı, Ağdərə, Laçın, Kəlbəcər, Füzuli, Qubadlı, Cəbrayıl, Ağdam və Zəngilan rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində əhalinin yaşadığı ərazidən didərgin düşməsi (deportasiya) ilə bağlı sənədlər də elan olunub.

Habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərlə amansız rəftar edilməsi, işgəncələr verilməsi, Birinci Qarabağ müharibəsi zamanı dəfn edilmiş naməlum şəhid məzarları, Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin meyit qalıqlarının Şuşa şəhərində təhvil verilməsi, Xocavənd rayonunun Edilli kəndində kütləvi məzarlığın aşkar edilməsi faktları üzrə sənədlər də elan edilib.

Elan olunan digər sənədlər azərbaycanlıların öldürülməsi, xəsarət yetirilməsi, öldürülməsinə cəhdlər və digər cinayətlərlə bağlı olub.

Sənədlərlə eyni vaxtda, habelə bir sıra fotoşəkillər nümayiş etdirilib.

Məhkəmə prosesi sentyabrın 26-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Mədəniyyət tariximizə yazılan daha bir beynəlxalq tədbir

Ölkəmizdə son illər çoxsaylı beynəlxalq tədbirlər keçirilir. Mövzusundan, formatından asılı olmayaraq, istər siyasi, iqtisadi, istər mədəni, istərsə də idman tədbirlərinin hər biri respublikamızda yüksək səviyyədə təşkil edilir. Beynəlxalq tədbirlər həm də ölkəmizi yaxşı evsahibi kimi tanıdır. İştirakçılar, qonaqlar hər dəfə Azərbaycandan böyük təəssüratlarla gedirlər və burada gördüklərindən razılıqla söz açırlar.



Bu il də bir-birindən maraqlı və mühüm tədbirlərlə yadda qalır. 2025-ci ilin martında respublikamızda ənənəyə çevrilmiş XII Qlobal Bakı Forumu, iyulda Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə görüşü, "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası və digər beynəlxalq tədbirlər fikir mübadilələri, müzakirələr ilə əhəmiyyətli oldu. Respublikamızın paytaxtı bu ay daha bir ənənəvi tədbirə - "Formula-1" Azərbaycan Qran-prisinə də uğurla evsahibliyi etdi. Sentyabrın 28-dən oktyabrın 8-dək isə ölkəmizdə III MDB Oyunları keçiriləcək. III MDB Oyunları Azərbaycanın yeddi şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə keçiriləcək. Açılış və bağlanış mərasimləri Gəncə şəhər stadionunda düzənlənəcək.

Qədimliyin və müasirliyin yüksək nailiyyətlərini, zənginliyini və rəngarəngliyini təzahür etdirən Azərbaycan mədəniyyətinin, milli-mədəni irsinin tanıdılmasında, təbliğində respublikamızda təşkil olunan beynəlxalq tədbirlərin müstəsna yeri və böyük rolu var. Belə tədbirlər sırasında "Xarıbülbül" Musiqi Festivalı, "Muğam Dünyası" Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı, Bakı Beynəlxalq Caz Festivalı, Şəki Beynəlxalq Teatr Festivalı və başqa tədbirləri xüsusi qeyd etməliyik. Bu tədbirlər dünyanın müxtəlif ölkələrindən olan sənətkarları ölkəmizdə bir araya gətirir, mədəniyyətlərin təbliğinə və dialoquna geniş şərait yaradır. Xalqımızın zəngin, özünəməxsus, bənzərsiz mədəniyyətinin təbliğində, o cümlədən Azərbaycanın yaradıcı imkanlarının dünya mədəniyyətində nümayiş etdirilməsində həmin tədbirlərin rolu əvəzsizdir.

Bu günlər Azərbaycan daha bir maraqlı və mühüm tədbirlə mədəniyyət tariximizin səhifələrində yer alıb. Belə ki, ölkəmizdə 3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı düzənlənib.

Xatırladaq ki, festival ilk dəfə 2018-ci il sentyabrın 27-dən 30-dək keçirilib. 1-ci Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunub. Şeir və sənətin yaşadılması məqsədi daşıyıb. Festival Nəsiminin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm…" şüarları ilə təşkil olunub. Tədbir Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşıb.

Prezident İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli sərəncamı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi ilə əlaqədar "Nəsimi ili" elan edilib. İmadəddin Nəsiminin yaradıcılığının tədqiqi və təbliği, onun fikir və düşüncələrinin müasirlikdə əksini izləmək məqsədilə həmin ildə - 2019-cu il sentyabrın 28-dən oktyabrın 1-dək Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-ci Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçirilib. Tədbirdə beynəlxalq miqyasda tanınmış nəsimişünaslar, şairlər, alimlər və filosoflar mühazirələrlə çıxış ediblər. Rusiyalı psixoloq Aleksey Sıtnikov, ABŞ-dən olan tədqiqatçı Alan Qodlas, italiyalı şair David Rondoni, azərbaycanəsilli, Böyük Britaniyada yaşayan filosof və rəssam Zeyqəm Əzizov mühazirələrində Nəsimi fəlsəfəsi ilə keçmişə və müasir dövrə aid müxtəlif nəzəriyyə və konsepsiyalar arasında paralellər aparıblar.

Bu il 3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı təşkil edilib. Festivalın açılış mərasimi sentyabrın 23-də Heydər Əliyev Mərkəzində olub.

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, ICESCO-nun tərəfdaşlığı ilə keçirilən festival "Əbədi həqiqət axtarışında" mövzusunda beynəlxalq forumla işinə başlayıb. Forumda Azərbaycanla yanaşı, Almaniya, İran, İraq, Kanada, Qazaxıstan, Oman, Özbəkistan, Pakistan, Şimali Kipr, Tacikistan, Türkiyədən alimlər iştirak ediblər.

Çıxışında Azərbaycanın zəngin mədəni irsinin və ədəbi ənənələrinin əsrlər boyu xalqımızın mənəvi inkişafına xidmət etdiyini və bu irsin qorunmasının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu diqqətə çatdıran Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli onu da qeyd edib ki, festivalın keçirilməsi həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə Azərbaycan mədəniyyətinin tanıdılması və qlobal əməkdaşlığa töhfə verilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Nazir bildirib ki, bu tədbirlər eyni zamanda ölkəmizin suverenliyi və ərazi bütövlüyü şəraitində həyata keçirilir, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş nailiyyətlər Azərbaycan mədəniyyətinin inkişafını daha da gücləndirir.

Forumun açılışında ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin videomüraciəti təqdim olunub. O, Nəsimi irsinin insanlığın mədəni və mənəvi inkişafında əvəzsiz rol oynadığını vurğulayıb. ICESCO-nun Baş direktoru bildirib ki, bu irsi yad etməklə cəsarət, sorğu və gözəllik ənənəsi canlanır, insanlığın yolu işıqlandırılır. Səlim bin Məhəmməd əl-Maliki onu da qeyd edib ki, Nəsimi irsi qəlbləri və ağılı işığa, birliyə, sülhə və rifaha yönəldir.

Üç gün ərzində Bakı və Şamaxıda keçirilən 3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı zəngin proqramı ilə yadda qaldı. Tədbir çərçivəsində Nəsimi yaradıcılığına dair müzakirələr, sərgilər, musiqi təqdimatları təşkil olundu, tamaşalar təqdim edildi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# BMU-da 27 Sentyabr - Anım Gününə həsr olunan konfrans keçirilib

Bakı Mühəndislik Universitetində (BMU) 27 Sentyabr - Anım Gününün beşinci ildönümünə həsr olunan konfrans keçirilib. Açılış mərasimində şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.





Bu barədə AZƏRTAC-a BMU-dan məlumat verilib. Bildirilib ki, Zəfər yolu tarixi ilə bağlı videoçarx izlənildikdən sonra çıxış edən BMU-nun rektoru Yaqub Piriyev Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 27 sentyabrın doğma torpaqlar uğrunda canlarını qurban verən Vətən övladlarının xatirəsinə ehtiram əlaməti olaraq Anım Günü kimi qeyd edildiyini bildirib. Beş il öncə başlayan və 44 gün davam edən müharibənin səbəbləri, uğurlu nəticələri, həmçinin 2023-cü ilin sentyabrında ordumuzun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpa olunmasını diqqətə çatdıran rektor bu möhtəşəm Zəfərin şəhidlərin qanı, qazilərin cəsurluğu, xalqımızın birliyi və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində qazanıldığını deyib. Yaqub Piriyev qeyd edib ki, milli həmrəyliyin, peşəkar rəhbərliyin, effektiv hərbi strategiyanın və ordumuzun gücü düşməni kapitulyasiya aktına imza atmaq məcburiyyəti qarşısında qoydu. Prezident İlham Əliyevin liderlik xüsusiyyətləri, milli məsələlərdə prinsipiallığını, cəmiyyəti vahid amal uğrunda səfərbər etmək bacarığını, güclü, dünya səviyyəli siyasətçi olmasını qələbəni şərtləndirən mühüm amil kimi önə çəkən rektor dövlətimizin başçısının müharibənin gedişində və sonra xarici mətbuata verdiyi müsahibələrinin beynəlxalq ictimai rəyə təsirini xüsusi vurğulayıb. Nəticədə ölkəmizə təzyiqlər cəhdinin qarşısının müvəffəqiyyətlə alınmasını Azərbaycanın diplomatik uğuru kimi səciyyələndirib. Rektor bildirib ki, Prezident İlham Əliyev azad edilmiş ərazilərə davamlı səfərləri ilə həm sevincini xalqla bölüşür, həm də Azərbaycanın məhz öz iqtisadi imkanları sayəsində Qarabağ və Şərqi Zəngəzuru tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir.

Çıxışının sonunda şəhidlərimizin əziz xatirəsinin daim ürəklərdə yaşayacağını, onların göstərdiyi misilsiz igidliklərin gələcək nəsillər üçün örnək olacağını deyən rektor tələbələrə tövsiyələrini çatdırıb. Bildirib ki, gənclərin borcu müqəddəs amal uğrunda canından keçənlərin əziz xatirəsini qorumaqla yanaşı, daim səylə çalışmaq, Azərbaycanın daha da güclənməsinə töhfə verməkdir.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev 27 Sentyabr - Anım Gününü xalqımızın qəhrəman oğullarının xatirəsinə ehtiramın bariz nümunəsi adlandırıb. Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin igidlik və qəhrəmanlığının gələcək nəsillər üçün əsl vətənpərvərlik məktəbi olduğunu deyib. Şəhid ailələri və qazilərin sosial müdafiəsinin gücləndirilməsinə dövlətimizin göstərdiyi diqqəti önə çəkən Abdin Fərzəliyev Abşeron rayonunda bu istiqamətdə davamlı görülən işləri nəzərə çatdırıb. İcra başçısı dövlətimizin gücü və xalqımızın birliyi sayəsində qazanılmış tarixi Qələbənin daim qürur mənbəyimiz olacağını vurğulayıb.

27 Sentyabrın canını Vətən yolunda qurban verən qəhrəmanlarımızın müqəddəs amalını yaşatmaq günü olduğunu bildirən Abşeron RİH yanında İctimai Şuranın sədri, şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova şəhid ailələrinə, qazilərə göstərilən dövlət qayğısından danışaraq hər bir dəstəyin onlara böyük mənəvi dayaq olduğunu deyib. Şəhidlik mərtəbəsinə ucalmış Vətən övladlarının xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını söyləyən Xatirə İsmayılova gənclərə şəhidlərin yolunu daim uca tutmağı və dövlətimizə, ölkəmizə sədaqətlə bağlı olmağı tövsiyə edib.

BMU-nun Memarlıq və inşaat fakültəsinin I kurs tələbəsi, 19 yaşında Azərbaycan Respublikasının ali hərbi təltifi - Vətən Müharibəsi Qəhrəmanı adını almış Azər Abdullazadə tankçı kimi müharibədə yerinə yetirdiyi hərbi vəzifələrindən, Ermənistan ordusunun müdafiə səddinin yarılmasında qəhrəman əsgərlərimizin göstərdiyi və əyani şahidi olduğu hadisələrdən danışıb. Ağır yaralanarkən hospitalda əhatə olunduğu qayğıdan, dövlətimizin diqqətindən razılıqla bəhs edən Vətən Müharibəsi Qəhrəmanı Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu olmağı ilə fəxr etdiyini, ordumuzun həmişə müzəffər, dövlətimizin isə hər zaman qalib olacağına əminliyini söyləyib.

Tədbirdə geniş məruzə ilə çıxış edən BMU-nun professoru, tarix üzrə elmlər doktoru Şikar Qasımov Anım Gününün tarixi əhəmiyyətindən, Azərbaycanı Qələbəyə aparan yoldan, Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbə xalqımızın mübariz ruhunu, şəhidlərimizin qəhrəmanlığını, dövlətimizin gücünü parlaq ifadə edir. Çıxışda həmçinin gənc nəslin milli ruhda yetişdirilməsi, tarixi həqiqətlərin dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılmasının vacibliyi vurğulanıb.

Mərasimin sonunda şəhid Ziyəddin Rəşidovun atası Arzu Rəşidov 60 illik yubileyi münasibətilə təbrik edilib və universitetdə təhsil alan şəhid ailələrinin üzvləri ilə xatirə fotosu çəkdirilib.

# Nəsimi festivalının sonuncu günü Bakının tarixi məkanlarını əhatə edib

3-cü Nəsimi - şeir, mənəviyyat və incəsənət festivalı iştirakçıları Orta əsr Azərbaycan memarlığının monumental dekorativ sənətinin möhtəşəm nümunəsi sayılan Şirvanşahlar Sarayı Kompleksində Bakuvi məqbərəsinin qarşısına toplaşıblar.





AZƏRTAC xəbər verir ki, İçərişəhərin tarixi abidəsi önündə Nəsiminin "Məst" qəsidəsi əsasında qoyulmuş "Məst-i Dərviş" tamaşası təqdim edilib. Səhnə əsərinin ssenari müəllifi İlqar Fəhmidir. İçərişəhərin qədim divarları və küçələri Nəsiminin qəzəllərinə qərq olub. Həmin qəzəllər Nəsimi yaradıcılığına xas olan insan-Tanrı münasibətləri, insanın Tanrının bir zərrəsi olması, onun həyatda, cəmiyyətdə mövqeyi, bu dünyaya təsadüfi deyil, xüsusi missiya ilə gəlməsi fikrini vurğulayıb. Tamaşanın rejissoru Bəhruz Vaqifoğlu jurnalistlərə açıqlamasında deyib: "Əsəri ritual-performans adlandırmaq daha doğru olar. Cəmi iki həftə ərzində tamaşanı səhnəyə gətirdik. İstərdim ki, belə tədbirlərin sayı artsın, çünki xalqımız bu ruhdan qidalanacaq".

Daha sonra "Eşq-i nur" layihəsi təqdim edilib. Əməkdar rəssam və kurator Səbinə Şıxlinskayanın mentorluğu, həmçinin müasir Azərbaycan rəssamları və kuratorlarının iştirakı ilə hazırlanan layihə Nəsiminin poeziyası və fəlsəfəsini çağdaş incəsənətin çoxqatlı ifadə imkanları vasitəsilə yeni estetik müstəvilərə daşımağı hədəfləyib.

Sərgi insan varlığının ən dərin qatlarını əks etdirən anlayışlardan üç ideyanı eşq, işıq və işarə ətrafında qurulmuş metafizik səfərdir. Sərgidə təsviri incəsənət əsərləri, canlı ekspozisiyalar, monitorda nümayiş olunan ideyalar var. Məqsəd eşqi yalnız romantik və ya emosional bir hal deyil, əksinə, mövcudluğun əsasında duran bir mənəvi çağırış, ilahi cazibə kimi təqdim etməkdir.

Nümayiş olunan layihələrdən biri də Lenay Seyidəlizadənin "Sözün soyundurulması" adlı təqdimatı olub. Təqdimat həqiqəti bədənində daşıyan bir insan haqqındadır. Dərisi soyulur, amma sözü qalır.

Daha sonra Nəzrin Məmmədova Nəsiminin qəzəllərinin muğamla, elektron musiqi ilə sintezini təqdim edib.

Nəsimi festivalının bağlanışı "Atəşgah Məbədi" Tarixi-memarlıq qoruğunda "Savalan" qrupunun ifasında Nəsimi irsinə həsr olunmuş spiritual-irfani musiqili ədəbi-bədii gecə ilə yekunlaşacaq.

# Gəncədə "Nizami Gəncəvi və Şota Rustaveli - mədəniyyət kəsişmələri" mövzusunda beynəlxalq konfans keçirilmişdir

Gəncə Şəhər İcra Hakimiyyətinin, Gürcüstanın dövlət qurumlarının dəstəyi, AMEA-nın Gəncə Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Tbilisi Dövlət Universitetinin Şota Rustaveli adına Gürcü Ədəbiyyatı İnstitutunun təşkilatçılığı ilə "Nizami Gəncəvi və Şota Rustaveli - mədəniyyət kəsişmələri" mövzusunda Azərbaycan-Gürcüstan Birinci Beynəlxalq Konfransı keçirilmişdir.



Tədbirdə AMEA Rəyasət Heyətinin üzvü, akademik Fuad Əliyev, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, həmçinin hər iki ölkənin elm adamları iştirak etmişlər.

Konfransdan əvvəl iştirakçılar Nizami və Rustaveliyə həsr olunmuş sərgi ilə tanış olmuşlar. Sonra iştirakçılar Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.

Konfransda çıxış edənlər Azərbaycan və Gürcüstan xalqlarını birləşdirən dostluq münasibətlərinin tarixi kökləri, bu əlaqələrin bu gün daha da möhkəmlənməsi qeyd etmişlər. Məruzələrdə bildirilmişdir ki, Nizami Gəncəvi və Şota Rustavelinin yaradıcılıq dünyasının araşdırılması iki xalqın mədəni və elmi əməkdaşlığının inkişafına xidmət edir.

Sonda gürcü qonaqlara AMEA-nın 80 illiyinə həsr olunmuş suvenir xalçalar və elmi nəşrlər təqdim olunmuşdur.

Konfransdan sonra qonaqlar Nizami Gəncəvinin məqbərəsini, muzeyini və gürcü şairi Nikoloz Barataşvilinin barelyefini ziyarət etmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# AZƏRTAC Avropa Xəbər Agentlikləri Alyansının Afina konfransında iştirak edib



Afinada Avropa Xəbər Agentlikləri Alyansının (EANA) "Müasir çağırışlar dövründə xəbər agentliklərinin idarə olunması" mövzusunda konfransı keçirilib.

Tədbirdə Avropanın aparıcı agentliklərinin rəhbərləri və nümayəndələri, o cümlədən Alyansa üzv olan AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edib. Konfransda "Reuters", Böyük Britaniyanın "Press Association", Fransanın AFP, Bolqarıstanın BTA və digər agentliklərin rəhbərləri süni intellektin sürətlə yayıldığı vaxtda agentliklərin üzləşdiyi çağırışlardan, effektiv menecmentlik, gəlirlərin şaxələndirilməsi, müəllif hüquqlarının qorunması məsələlərindən danışıblar. Əsas diqqət xəbər agentlikləri tərəfindən süni intellekt vasitəsilə informasiya yaradılmasının etik və jurnalistika prinsiplərinə uyğunluğunun müzakirəsinə yönəldilib.

Eyni zamanda bildirilib ki, artıq xəbər saytları əvvəlki kimi axtarış sistemlərindən keçidlər əldə edə bilmir. Səbəb insanların sorğularını "Google" və digər axtarış sistemlərinə deyil, ChatGPT və ya digər proqramlara üz tutmasıdır. Bununla əlaqədar texnoloji nəhənglər müəllif hüquqlarını, informasiya mənbələrinin öndə olmasını alqoritmlər vasitəsilə təmin etməlidirlər və bütün bunlar qanunvericiliklə təsbit olunmalıdır.

Tədbir çərçivəsində AZƏRTAC ilə bir sıra agentliklər arasında ikitərəfli əməkdaşlıq əlaqələri müzakirə edilib.

BEYNƏLXALQ HƏYAT

# Fransanın keçmiş prezidenti Nikola Sarkozi 5 il həbsə məhkum edilib

Paris məhkəməsi Fransanın keçmiş prezidenti Nikola Sarkozini 2007-ci il seçki kampaniyasını maliyyələşdirmək üçün Liviya diktatoru Müəmmər Qəzzafidən milyonlarla avro almasında - "Liviya işi" adlandırılan cinayətkar sövdələşmədə iştirak etməkdə təqsirli bilib.



70 yaşlı sabiq prezident 5 il müddətinə azadlıqdan məhrum edilib. Lakin o, bir ay müddətində həbsxanaya göndəriləcək. Xatırladaq ki, bu, eks-prezidentin üçüncü cinayət işidir və o, əvvəllər həbs cəzası alıb, lakin cəzası ev dustaqlığı ilə əvəzlənib.

Yerli "Le Monde" qəzeti yazıb ki, bu cəza Sarkozinin bir ay ərzində prokurorluğa çağırılacağı və ona saxlanma tarixi barədə məlumat veriləcəyi deməkdir. Apellyasiya hökmün icrasını dayandırmayacaq. Fransız nəşri əlavə edib ki, məhkəmə "vətəndaşların onları təmsil edənlərə inamını sarsıda biləcək müstəsna ciddi halları" əsas gətirərək cəzanı təxirə salıb. Hakim həmçinin N.Sarkozinin 100 min avro cərimə ödəməsinə qərar verib.

Müstəntiqlərin fikrincə, 2005-ci ildə ovaxtkı daxili işlər naziri olmuş Sarkozi ilə Qəzzafi arasında "korrupsiya müqaviləsi" bağlanıb. N.Sarkozinin seçki qərargahı xarici kampaniyanın maliyyələşdirilməsinə qoyulmuş qadağanı pozaraq 50 milyon avro alıb və bunun əvəzində fransız siyasətçi Qəzzafinin beynəlxalq təcrid statusundan çıxmasına kömək vəd edib. N.Sarkozi daha sonra Fransa prezidenti seçilib.

Hakim Natali Qavarino qərarında bildirib ki, N.Sarkozi maliyyə vəsaiti əldə etmək üçün köməkçilərinə Qəzzafi ilə əlaqə saxlamağa icazə verib. Bununla belə məhkəmə N.Sarkozinin seçki kampaniyasının qanunsuz maliyyələşdirilməsindən faydalandığına dair kifayət qədər sübut tapmayıb.

Sabiq prezident bütün ittihamları rədd edib və cinayət təqibini siyasi motivli adlandırıb. Onun apellyasiya şikayəti verəcəyi gözlənilir.

Xatırladaq ki, iş üzrə istintaq 2013-cü ildə, Müəmmər Qəzzafinin oğlu Seyf əl-İslamın Sarkozini atasının pulundan seçki kampaniyasını maliyyələşdirməkdə ittiham etməsindən iki il sonra başlayıb. İttihamlar qismən uzun illər Fransa və Yaxın Şərq ölkələri arasında vasitəçilik etmiş livanlı iş adamı Ziad Tacəddinin ifadəsinə əsaslanıb. N.Sarkozinin özündən başqa, işdə daha 11 fiqurant var. Onlardan bəziləri təqsirli bilinib, bəziləri isə bəraət alıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Revanşistlər hərəkətə keçdilər

## Paşinyana qarşı yeni partiya yaradıldı

Ermənistanda siyasi müstəvidə müşahidə edilən qütbləşmə getdikcə dərinləşməkdə, bu kontekstdə iqtidar və müxalifət arasında münasibətlər gərginləşməkdədir. Tərəflərin bir-birlərinə qarşı kompromat xarakterli hücumlarının artması, gözdənsalma kampaniyasını genişləndirmələri vəziyyəti daha kritik həddə çatdırır.



İndi həm hakimiyyət, həm də revanşistlər 2026-cı ilin parlament seçkilərinə hazırlaşırlar. Bu isə qarşıdakı dövr Ermənistanda xaosun qaçılmaz olduğunu deməyə əsas verir. Proseslər göstərir ki, keçmiş hərbi xunta yaranmış vəziyyətdən istifadə edərək kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Nəzərə alaq ki, Ermənistanda kilsə kifayət qədər nüfuza və gücə sahibdir. Bu həm də o anlama gəlir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə amilindən yararlanmaq istəyirlər.

Ermənistanda yeni - "Ana Ermənistan" partiyası yaradılıb. Yerli medianın yazdığına görə, "Ana Ermənistan" hərəkatı bu yolla siyasi təşkilata çevrilmək qərarı verib. Partiyanın yaydığı bəyanatda bildirilir ki, qısa müddət ərzində "Ana Ermənistan" hərəkatı ölkənin siyasi mənzərəsində mühüm yer tutub: "Ana Ermənistan" yeni siyasi qüvvə olmasına baxmayaraq, İrəvan və Gümrüdə keçirilən yerli seçkilərdə uğur qazanıb, ölkənin iki ən böyük şəhərinin Ağsaqqallar şuralarında təmsil olunub. Növbəti mərhələ Vaqarşapatda keçiriləcək seçkilər olacaq".

Partiyanın sədri seçilmiş Andranik Tevanyanın təsis qurultayında qeyd etdiyi kimi, onların yeganə hədəfi Nikol Paşinyanın rəhbərlik etdiyi "Mülki Müqavilə" partiyasıdır: "Əsas vəzifələrdən biri "Mülki Müqavilə"nin hakimiyyətdən kənarlaşdırılmasıdır. Ermənistanda təhlükəsizliyi və əmin-amanlığı təmin edəcək bir hökumət qurulmalıdır. Qarşıda çətin iş var, lakin biz uğur qazanacağıq".

Qeyd edək ki, "Ana Ermənistan" hərəkatı 2023-cü il mayın 28-də "geniş sosial konsolidasiyanı təmin etmək, milli və dövlət maraqlarını qorumaq" məqsədilə yaradılmışdı. Təşkilat cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrini - politoloqlar, iqtisadçılar, diplomatlar, sosioloqlar, tanınmış ziyalılar, hüquqşünaslar, həkimlər, müəllimlər, professorlar, İT mütəxəssisləri, jurnalistlər, bloqçular, tələbələr, kiçik və orta biznes nümayəndələrini birləşdirir.

Onu da qeyd edək ki, müharibədə məğlubiyyətin səbəbləri ilə əlaqədar Ermənistanda hər gün müxtəlif səpkidə fikirlər səslənməkdədir. Bu mövzudan N.Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi çəkişməyə səbəb olub. Belə ki, keçmiş baş nazirin müavini Armen Gevorqyan Qarabağdakı müharibənin səbəbləri və erməni tərəfinin məğlubiyyəti ilə bağlı məqalə yazıb. Qeyd edib ki, Nikol Paşinyan və komandası Qarabağ probleminin həllini Ermənistan iqtisadiyyatına sürətli investisiyaların cəlb edilməsinin və möhkəmlənməsinin qarantı kimi gördü. Ermənistan rəhbərliyinin səhvlərindən danışan A.Gevorqyan bildirib ki, Paşinyan hakimiyyətdə olduğu illərdə bir neçə strateji səhv edib. Bu səhvlər isə hazırda məlum olan nəticələrə gətirib çıxarıb. O, N.Paşinyanın Qarabağ məsələsində "sürətli və dinc həll yolu"na getməsini ilk səhv hesab edir. A.Gevorqyanın fikrincə, ikinci səhv isə N.Paşinyan və komandasının Qarabağ məsələsinin detallarını ictimaiyyətdən gizlətməsi və barışıq üçün ictimai rəy hazırlamamasıdır.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Yunanıstanda saxlanılan keçmiş partiya lideri Moldovaya ekstradisiya olunub

Yunanıstanda saxlanılan Demokratik Partiyasının sabiq lideri Vladimir Plaxotnyuk sentyabrın 25-də Moldovaya ekstradisiya edilib.

AZƏRTAC "Newmarker.md" saytına istinadla xəbər verir ki, qaçaq oliqarx Afinadan birbaşa reyslə müşayiət altında Kişineuya aparılıb. Bir gün əvvəl ədliyyə naziri Veronika Mixaylov-Moraru ölkəyə gəldikdən dərhal sonra onun paytaxtdakı 13 saylı cəzaçəkmə müəssisəsində təkadamlıq kameraya salınacağını bildirmişdi.

Moldova oliqarxı, Demokratlar Partiyasının keçmiş lideri Vladimir Plaxotnyuk iyulun 22-də Afina hava limanından Dubaya uçmağa cəhd edərkən saxlanılıb. Axtarış zamanı onun çantasından Moldova, Rumıniya, Rusiya, Ukrayna, Bolqarıstan, İraq və Vanuatu səlahiyyətliləri tərəfindən müxtəlif adlarla verildiyi iddia edilən 21 sənəd tapılıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları onunla birlikdə saxlanılan Konstantin Tsutsudan da Rumıniya və Bolqarıstanda verildiyi iddia edilən şəxsiyyəti təsdiq edən 5 sənəd tapıblar.

# Almaniyanın Meklenburq-Ön Pomeraniya əyalətində keçirilən rəy sorğusu ifrat sağçı AfD-nin yüksəlişdə olduğunu göstərir

Almaniyanın Meklenburq-Ön Pomeraniya əyalətində keçirilən rəy sorğusunun nəticələri ifrat sağçı Almaniya üçün Alternativ (AfD) partiyasının ən güclü siyasi qüvvə olduğunu göstərir.

AZƏRTAC yerli mediaya istinadla xəbər verir ki, əyalətdə yerli parlament seçkilərinə bir il qalmış keçirilən sorğuya qatılanların 38 faizi bu partiyaya səs verməyə hazır olduğunu bildirib. Bu, AfD-nin 2021-ci ildəki göstəricisindən iki dəfə çoxdur.

Əyalətin Baş naziri Manuela Şvesiqin təmsil etdiyi Sosial Demokrat Partiyası (SPD) isə kəskin geriləyib. Partiya hazırda yalnız 19 faiz səs toplayıb. Bu, dörd il əvvəlki seçkilərdə əldə olunan nəticənin təxminən yarısıdır. Digər partiyalar üçün də vəziyyət ürəkaçan olmayıb. Xristian Demokratlar İttifaqı (CDU) respondentlərin 13 faizinin, Sol partiya 12 faizinin, Sahra Vaqenknext İttifaqı (BSW) 7 faizinin, Yaşıllar isə 5 faizinin dəstəyini qazanıb. Sorğuya qatılanların fikrincə, Azad Demokratik Partiyanın (FDP) artıq heç bir rolu qalmayıb.

Qeyd edək ki, Meklenburq-Ön Pomeraniya əyalətində növbəti parlament seçkiləri 2026-cı il sentyabrın 20-nə təyin olunub.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
“Mən Sizinlə, həqiqətən, fəxr edirəm”
Donald Trampdan İlham Əliyevə
Prezident İlham Əliyevin Nyu Yorkda görüşləri davam edir
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər
Azərbaycanın strateji yüksəlişi və Orta dəhlizin yeni geosiyasi reallıqları
BMT platformasından bəyan olunan həqiqət

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Ailələrin çətin həyat şəraitinə düşməsinin qarşısının alınması məqsədilə valideynlərin məsuliyyətli valideynlik bacarıqlarının artırılması mövzusunda maarifləndirmənin təşkili" adlı

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 10 oktyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 13 oktyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili - 5036)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Sosial işin idarə edilməsi (Keys menecment)" və "Davamlı demoqrafik inkişaf və ailə dəyərlərinin təbliği" adlı

***müsabiqə keçirir***

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 10 oktyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 13 oktyabr 2025-ci il saat 12:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili - 5036)**

***Müsabiqə komissiyası***

# Paytaxtda 22-26, bölgələrdə 22-27 dərəcə isti olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sentyabrın 26-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək, axşam arabir gücləndən şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 15-18, gündüz 22-26 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 14-18, gündüz 22-27, dağlarda gecə 3-8, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

102-SH Sağlam Həyat Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus rəsmi sənədlər - İşçilərin əməkhaqqı tabeli, Əmək müqaviləsinə xitam verilmiş işçilərin son haqq-hesab əməkhaqqı tabeli, İşçilərin işə giriş və çıxış tabeli itdiyi üçün etibarsız sayılır.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4110**
**Sifariş 1937**

**Qiyməti 60 qəpik**